# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

16 dekabr 2025-ci il, çərşənbə axşamı

№ 229 (7056)

Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Ən böyük amnistiya!

## Azərbaycan Prezidenti "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan olunması təşəbbüsünü irəli sürüb

Bax səh. 2



# 34 il öncə, bu gün...

## Naxçıvanda tarixi qərar verildi!

Bax səh. 3



«Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır.»

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

# Türk dünyasının ortaq tarixi irsi

Bax səh. 2

# Etibarlı tərəfdaşlığını yeni mərhələsi

Bax səh. 5

# Avrasiyada yeni iqtisadi nizamın açarı



Bax səh. 4

# Qloballaşan mühitdə dəyərlərimizi necə qoruyaq?

Bax səh. 6

## "16-cı NATO günləri"...

Azərbaycanın xarici siyasət startegiyasında təhlükəsizlik məsələlərinə hər zaman xüsusi diqqət yetirilir. Bu baxımdan, dövlətimiz NATO ilə əlaqələrə böyük önəm verib və bu əməkdaşlığı səmərəli və balanslaşdırılmış xarici siyasət üçün vacib faktor hesab edib. Ölkəmizin Alyans üçün önəmi isə qurumun rəsmi şəxsləri tərəfindən hər zaman vurğulanıb.

Qeyd edək ki, bugünlərdə "16-cı NATO günləri" çərçivəsində Alyansın Avropa Ali Müttəfiq Qüvvələr Komandanlığının (SHAPE) Qərargah rəisinin müavini - Tərəfdaşlıq İdarəsinin rəisi kontr-admiral Yusuf Karagüllenin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olub. Müdafiə Nazirliyindən verilən...

Bax səh. 3

## Kolonializmin Belçika "üzü" - tarixdən dərs, gələcəyə çağırış...

Kolonializm müasir beynəlxalq münasibətlər sistemində artıq tarixə qovuşmalı, insanlığın geridə qoyduğu qaranlıq bir mərhələ kimi dəyərləndirilməlidir. Lakin formal müstəqilliklərə baxmayaraq, bu gün də dünyanın müxtəlif regionlarında neokolonial siyasət, iqtisadi asılılıq, siyasi təzyiq və mədəni identikliyin sıxışdırılması kimi halların davam etməsi göstərir ki, kolonializm tam aradan qalxmayıb. Bu tendensiya XXI əsrin əsas dəyərləri olan suverenlik, bərabərlik...

Bax səh. 4

## ÜDM-in həcmi 116 milyard manatı ötüb

2025-ci ilin yanvar-oktyabr aylarında ölkəmizdə 116 milyard 320 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,6 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,8 faiz azalsa da, qeyri neft-qaz sektorunda isə 3,2 faiz artıb. Belə ki, ÜDM istehsalının 34 faizi sənaye, 10,6 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 7,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 6,5 faizi tikinti, 2,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,9 faizi informasiya...

Bax səh. 5

## Berlin "raundu": sözdə irəliləyiş, reallıqda isə...

Rusiya-Ukrayna müharibəsinin dayandırılması istiqamətində gedən danışıqlar prosesinin növbəti raundu keçirilib. Qeyd edək ki, ABŞ-ın vasitəçilik mandatını həyata keçirən qrup dekabrın əvvəlində Moskvada Rusiya rəsmiləri ilə görüşmüşdü. Təxminən beş saat davam edən görüşdə ABŞ-ın Ukrayna üçün sülh planı müzakirə edilmişdi.

Bu görüşün ardından isə növbəti raund Ukrayna tərəfi ilə keçirilməli idi - gözlənilən görüş dekabrın 14-də baş tutub. "Reuters"...

Bax səh. 7

# Rusiya-Ukrayna savaşının görünməyən tərəfi: kəşfiyyat müharibəsi



Bax səh. 7



# Sidney terrorunda "İŞİD" izi...

Bax səh. 6



# Ən böyük amnistiya!

## Azərbaycan Prezidenti "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan olunması təşəbbüsünü irəli sürüb

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi və xilaskarlıq missiyası sayəsində müstəqil Azərbaycan dövləti qurulub möhkəmlənmiş, Ulu Öndərin rəhbərliyi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası müasir dövlətçiliyimizin hüquqi təməlini yaratmışdır.

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və uzaqgörən strategiyası, sarsılmaz liderliyi və Silahlı Qüvvələrimizin misilsiz qəhrəmanlığı sayəsində Vətən müharibəsində qazandığımız Zəfər və lokal xarakterli antiterror əməliyyatı nəticəsində suverenliyimiz və ərazi bütövlüyümüz tam bərpa edilmişdir.

AZƏRTAC xəbər verir ki, suverenliyimizin bərpasının, Konstitusiyamızın ali hüquqi qüvvəsinin ölkəmizin bütün ərazilərində bərqərar olunmasının xalqımızın ən böyük tarixi qələbəsi olduğunu nəzərə alaraq, humanizm və mərhəmət ənənələrinə sadiq qalaraq, cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə inanaraq, cəzadan azad olunacaq şəxslərin qanunlara dönmədən əməl edəcəklərinə və dövlətimizin inkişafına öz töhfələrini verəcəklərinə ümid edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev amnistiya elan edilməsi təşəbbüsünü irəli sürüb.

Amnistiya aktının layihəsinə əsasən, Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslərin, eləcə də bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının, Ermənistan Respublikasının mülki əhaliyə qarşı hərbi təxribatı nəticəsində əlil olmuş şəxslərin, habelə qadınların, 60 yaşına çatmış şəxslərin, cinayət törədərkən yetkinlik yaşına çatmayanların və digər şəxslərin cəzadan və ya cinayət məsuliyyətindən azad edilmələri nəzərdə tutulur.

Bununla yanaşı, layihəyə əsasən, böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət, habelə ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş bir sıra şəxslər cəzadan azad ediləcək və ya cəzalarının çəkilməmiş hissəsi azaldılacaqdır.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunan Amnistiya aktının tətbiq ediləcəyi şəxslərin, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad ediləcək məhkumların sayına görə ən böyük amnistiya olacağı ehtimal edilir. Belə ki, amnistiya aktının ümumilikdə 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan 5 mindən çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, həmin cəzaya məhkum olunmuş 3 mindən artıq şəxsin cəzasının azaldılacağı, 7 mindən çox məhkumun azadlığın məhdudlaşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, habelə mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi proqnozlaşdırılır.

# Türk dünyasının ortaq tarixi irsi

XXI əsrin əvvəlindən bütün türk dünyası üçün son dərəcə mühüm əhəmiyyət daşıyan hadisələr baş verir. Dövlətlərin siyasi iradəsi, cəmiyyətlərin istəyi ilə türkdilli ölkələrin daha sıx inteqrasiyası dönməz prosesə çevrilib. Dekabrın 15-də isə Dünya Türk Dili Ailəsi Günü qeyd olunub.

Xatırladaq ki, bu əlamətdar gün UNESCO-nun bu il noyabrın 3-də Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş 43-cü Baş Konfransında təsis edilib. Tədbirdə194 ölkədən 5000-dən çox nümayəndə iştirak edib. Onlar Prezident Rəcəb Tayyib Ərdoğanın 15 dekabrı Ümumdünya Türk Dili Ailəsi Günü elan etmək təklifi ilə bağlı qətnamə layihəsini nəzərdən keçirib və təsdiqləyiblər.

## Dünyada vahid türk ailəsi

İndiyədək türk birliyinin siyasi təsisatlanmasına dəyərli töhfələr verən Azərbaycan Prezidenti İlham Əliyev türk dünyasını vahid bir ailə kimi səciyyələndirib və bildirib ki, bizi başqa yerdə gözləmirlər.

Türk dünyası 11,2 milyon kvadratkilometrdan artıq ərazini və 200 milyonadək əhalini əhatə edir. Türk coğrafiyasının sərhədləri Qərbdə Adriatik dənizi sahillərindən başlayır, Şərqdə Çin səddinə və Sibirədək uzanır. Türk xalqları tarixən bu coğrafiyada böyük imperatorluqlar (Hun, Göytürk, Avar, Xəzər, Uyğur, Qaraxanlı, Qəznəvi, Böyük Səlcuq, Xarəzmşahlar, Böyük Moğol, Qızıl Orda, Osmanlı, Teymurilər, Səfəvilər, Babur, Əfşarlar) və müxtəlif ölçülü dövlətlər qurmağa nail olublar. Müasir dövrdə isə 7 müstəqil türk dövləti var - Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və de-yure hələlik yalnız Türkiyə tərəfindən tanınan Şimali Kipr Türk Cumhuriyyəti. Bunlar hazırda türk dünyasının ümumi ərazisinin 44 faizini əhatə edir, qalan 56 faizi isə hələ ki, müstəqil deyildir. Türklərin tarixi coğrafi yayılma arealında hazırda Rusiya Federasiyası tərkibində muxtar statusa sahib türk respublikaları, yəni Tatarıstan, Başqırdıstan, Çuvaşiya, Krım, Saha (Yakutiya), Altay, Xakasiya, Tuva, Qaraçay-Çərkəz, Kabardin-Balkar respublikaları, Şimali Qafqaz və Sibirin türk toplumları, həmçinin Çinin tərkibindəki Sintzyan-Uyğur Muxtar Respublikası adını daşıyan Şərqi Türküstan yer alır. Şərqi Avropada Balkanlarda, Yaxın Şərqdə İran, İraq, Suriya, Şimali və Cənubi Qafqazda, Mərkəzi Asiyada, Şimali Çində, Cənub və Şimal-Şərqi Sibirdə yaşan türk toplumlarınadək türk dünyası geniş bir mədəni-coğrafi yayılma arealına malikdir.

Geniş türk coğrafiyası eyni zamanda böyük iqtisadiyyatdır. Burada zəngin təbii sərvətlər cəmləşib. Həmçinin türk dövlətləri kifayət qədər əlverişi coğrafi yerləşməyə malikdirlər. Avrasiyada Şərq-Qərb, Şimal-Cənub, eləcə də Transxəzər (Orta Dəhliz) kimi nəqliyyat bağlantıları məhz bu ərazilərdən keçir. Bütün bunlar türk dünyasının beynəlxalq birliyə yeni güc mərkəzi kimi təqdim edilməsinə real əsaslar yaradır.

Bu gün qarşıda duran ən mühüm vəzifələrdən biri türk dövlətləri və xalqları arasında mədəni inteqrasiyanın dərinləşdirilməsidir. İndiyədək siyasi cəhətdən təsisatlanmada mühüm addımlar atan türk dünyası həmçinin mədəni inteqrasiya istiqamətində də bir sıra uğurlara nail olub. Bu xüsusda, 1993-cü ildə türkdilli xalqları mədəniyyət və incəsənət vasitəsilə bir-birinə daha da yaxınlaşdırmaq üçün mərkəzi ofisi Ankarada olan Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) yaradılmasını ayrıca qeyd edə bilərik. TÜRKSOY vasitəsilə müxtəlif mədəni tədbirlərin keçirilməsi türk xalqlarının yaxınlaşmasında önəmli rol oynayır.

Türk dünyasının əməkdaşlıq təşkilatları arasında xüsusi yeri olan Türk Mədəniyyəti və İrsi Fondu 2015-ci ildən fəaliyyət göstərir. Azərbaycanın təşəbbüsü ilə yaradılan təşkilatın mənzil-qərargahı Bakıda yerləşir. 2015-2023-cü illərdə qurumun ilk prezidenti Günay Əfəndiyeva (Azərbaycan) olub. 2024-cü ildən Türk Mədəniyyəti və İrsi Fonduna Qazaxıstanın Əməkdar incəsənət xadimi, sənətşünaslıq elmləri doktoru Aktotı Raimkulova rəhbərlik edir.




## Orxon yazılı abidələrinin deşifrə edildiyi tarixi gün

Ortaq Türk Əlifbasının razılaşdırılması türkdilli ölkələr arasında mədəni bağların möhkəmləndirilməsi yolunda çox mühüm addım oldu. Xatırladaq ki, bu razılaşma ötən il sentyabrın 9-dan 11-dək Bakıda Beynəlxalq Türk Akademiyası və Türk Dil Qurumu tərəfindən təşkil olunan "Türk Dünyası Ortaq Əlifba Komissiyası"nın üçüncü iclasında əldə olunub. Müzakirələr nəticəsində 34 hərfdən ibarət Ortaq Türk Əlifbası üzərində ümumi razılıq əldə olunub.

Biz qürur duyuruq ki, zəngin bir mədəniyyətin daşıyıcılarıyıq. Bizi tarix, ortaq milli-mənəvi dəyərlər birləşdirir. Türk dili ailəsi bütün türkdilli xalqların ortaq irsidir. UNESCO tərəfindən 15 dekabrın Türk Dili Ailəsi Günü kimi müəyyənləşdirilməsi də təsadüfi deyil. Bu tarix Orxon abidələrinin - bütün türk dillərinin ortaq köklərini və tarixi irsini əks etdirən ən qədim yazılı abidələrin oxunduğu günə təsadüf edir. 1893-cü il dekabrın 15-də danimarkalı dilçi Vilhelm Tomsen Orxon yazılı abidələrini deşifrə etdiyini elan edib. Onun bu elmi nailiyyəti hazırda Avrasiya məkanında türk dilləri ailəsinin ən qədim yazılı ənənələrindən birinin daha dərindən anlaşılmasına yol açıb.

Bu əlamətdar gün türk xalqlarının ortaq irsi kimi eyni ailədən olan dillərin qorunmasına və inkişafına, bu mədəni sərvətin gələcək nəsillərə ötürülməsinə töhfə verir.

Türk dilləri ailəsi yalnız dilçilik kateqoriyası deyil, həm də ortaq mədəni yaddaşın, tarixi irsin və mənəvi birliyin daşıyıcısıdır. Türk dillərinin müxtəlif qollarında - Oğuz, qıpçaq, qarluq və digər istiqamətlərdə qorunan qədim köklər bu dilləri danışan xalqlar arasında dərin mənəvi və düşüncə yaxınlığını formalaşdırıb.

Orxon-Yenisey abidələri, Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" və Yusif Balasaqunluğu "Qutadqu Bilik" abidələri, eyni zamanda, bəşər mədəniyyətinin bir hissəsidir. Dünya Türk Dili Ailəsi Günü türk xalqlarının dünya elminə və mədəniyyətinə verdiyi töhfələrin beynəlxalq miqyasda təbliği baxımından da önəmlidir.



## Qlobal çağırışlarla adekvatlıq

Dünya Türk Dili Ailəsi Gününün təsis edilməsi qloballaşma şəraitində dünyada yaranan çağırışlarla da adekvatlıq təşkil edir. Qloballaşma özündə bir sıra müsbət cəhətləri ehtiva etsə də, kiçik xalqlar və milli dillər üçün ciddi çağırışlar yaradıb. Statistika olduqca kədərlidir. UNESCO-nun məlumatına görə, dünyada 6000-dən çox dil var, lakin onların yarıdan çoxu məhv olmaq təhlükəsi ilə üz-üzədir. Buna səbəb isə həmin dillərin istifadə arealının daralmasıdır. Mütəxəssislərin qənaətinə görə bir dilin yaşaması üçün həmin dildə ən azı 100 min insan danışmalıdır. Bu gün dünyada 200-ə yaxın dil var ki, onların hər birində cəmi 10 adam danışır. Hazırda dünyada Çin dili ən çox işlənən dil sayılır. Bu dildə 1 milyard 80 milyondan çox insan danışır. İkinci yerdə 515 milyondan çox istifadəçisi olan ingilis dili gəlir. O cümlədən hind dillərində danışanlar 500 milyon, ispan dilində danışanlar 425 milyon, rus dilində danışanlar isə 257 milyon nəfərdən çoxdur. Ərəb dili altıncı yerdədir. Bu dildə 256 milyon nəfərdən çox adam danışır. İlk onluğu 120 milyondan çox istifadəçisi olan fransız dili tamamlayır. Türk dili ailəsinə daxil olan dillərdə isə ümumilikdə 200 milyondan çox insan danışır.

Milli dillər üçün yaranan təhdidlər nəzərə alınmaqla BMT və UNESCO səviyyəsində dillərin qorunmasına ciddi diqqət göstərilir. 1999-cu ilin noyabrında Banqladeş səfirinin təşəbbüsü ilə UNESCO tərəfindən fevralın 21-i Beynəlxalq Ana Dili Günü elan edilib. Dil və mədəni müxtəlifliyi təbliğ etmək məqsədilə Beynəlxalq Ana Dili Günü 2000-ci ildən etibarən hər il qeyd edilir.

Dünyada, həmçinin aşağıdakı dillərin günləri də qeyd edilir:

20 aprel - Çin Dili Günü,
23 aprel -İngilis Dili Günü,
6 iyun - Rus Dili Günü,
18 dekabr - Ərəb Dili Günü,
20 mart - Fransız Dili Günü,
12 oktyabr -İspan Dili Günü.

Qloballaşma şəritinin reallıqları türk dili ailəsində yer alan dillərin qorunması zərurətini də gündəmə gətirib. Azərbaycan dilinin dövlət dili statusu qazanması xalqımızın tarixi nailiyyətidir.

## Bakıda Birinci Türkoloji Qurultayın 100 illiyi qeyd olunacaq

Bakı şəhəri XX əsrin əvvəllərindən intellektual həyatın yüksək səviyyəsi ilə seçildiyi və dünya türkologiyasının nüfuzlu mərkəzlərindən biri kimi tanındığı üçün 1926-cı ilin fevralında Birinci Türkoloji Qurultaya ev sahibliyi edib. Birinci Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir. Beynəlxalq miqyaslı bu unikal elmi forumda türkologiyanın ən aktual məsələləri geniş və sistemli müzakirə obyektinə çevrilmiş, türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilib, latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılıb.

Əlbəttə, Birinci Türkoloji Qurultaydan sonra bir sıra hadisələr baş verib. Xüsusilə də keçmiş ittifaqın ideoloji çərçivələri birinci qurltayda gündəmə gətirlən bütün məsələlərin həllinə imkan verməyib. Artıq 70 il ittifaq dövlətinin tərkibində olan türkdilli respublikalar müstəqil dövlətlərdirlər və yuxarıda vurğuladığımız kimi, son illərdə türk dövlətləri arasında inteqrasiya bütün sahələrdə dərinləşib. Beləliklə də, dil məsələlərinin daha əhatəli müzakirləri üçün də yeni imkanlar yaranıb. Təsadüfi deyildir ki, 2025-ci il oktyabrın 6-7-də Qəbələ şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 12-ci Zirvə Görüşünün Bəyannaməsində Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi çağırışı öz əksini tapıb. Bundan az sonra isə - 22 oktyabr 2025-ci il tarixində Prezident İlham Əliyev Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi barədə Sərəncam imzalayıb.

"Yeni Azərbaycan"a açıqlama verən akademik Nizami Cəfərov dövət başçısının Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi barədə Sərəncam imzalamasının böyük aktuallıq daşıdığını bildirib. N.Cəfərov qeyd edib ki, Birinci Türkoloji Qurultayın dərslərini bu gün də almalıyıq, sənədləri diqqətlə araşdırmalı, oxumalı, təhlil etməliyik. Birinci Türkoloji Qurultayda olduğu kimi, bu gün də təxminən eyni məsələlər üzərində dayandığımızı deyən N.Cəfərov qeyd edib ki, həmin məsələlərdən biri terminalogiyadır: "Milli terminlərimizi yaratmalıyıq, yoxsa beynəlxalq terminlərdən istifadə etməliyik, türk xalqları bir-birilərinə termin verə bilərmi? Bu mövzular günümüzdə də ciddi mübahisələrə səbəb olur. Ortaq olaraq hansı türkçəni istifadə etməliyik? Süni bir türkçə yaratmalıyıqmı? Bütün bunlar müzakirə olunur. Həmin müzakirələr də türk xalqlarını birləşdirir, - deyə akademik vurğulayıb.

*Mübariz FEYİZLİ*

# 34 il öncə, bu gün...
## Naxçıvanda tarixi qərar verildi!

Tarixin bu günündə - 1991-ci il dekabrın 16-da Azərbaycan məfkurəsinə yeni bir ümummilli ideya daxil olub. Söhbət həmin tarixdə dünya azərbaycanlılarını birləşdirən həmrəylik gününün təsis edilməsinin gündəmə gətirilməsindən gedir. Bu ümummilli ideyanı Azərbaycan məfkurəsinə gətirən isə böyük siyasətçi Heydər Əliyev olub. O, Özünə xas olan uzaqgörənliklə qədim diyarda - Naxçıvanda həmrəylik günümüzün əsasını qoyub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il dekabrın 16-da Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə tarixi qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Azərbaycan Respublikasının Ali Sovetinə müraciət ünvanlayıb.

**Həmrəylik, milli birlik bayramı**




### Heydər Əliyevin həyat yolu - hər bir azərbaycanlı üçün sonsuz qürur mənbəyi

### Niyə məhz 31 dekabr?

Bəs nə üçün 50 milyonluq dünya azərbaycanlılarının həmrəylik günü kimi məhz ilin son günü - dekabrın 31-i müəyyənləşdirilib? Uzaqgörən siyasətçi Heydər Əliyevin təşəbbüsü ilə bu tarixin seçilməsi böyük rəmzi məna daşıyır. Sirr deyil ki, azərbaycanlılar tarix boyunca bir çox haqsızlıqlara, təzyiqlərə, soyqırımlarına məruz qalıblar. Məhz imperialist güc mərkəzlərinin məkrli planlarının nəticəsidir ki, zaman-zaman tarixi torpaqlarımız zəbt olunub, bizim iradəmizdən kənarda ana Vətən bölünüb. Ancaq biz qəlbimizdə Vətən, torpaq sevgisi son dərəcə böyük olan bir xalqıq. Yadellilərin planları nə qədər məkrli, iblis xislətli olsa da, bizim qan yaddaşımızdan torpaq sevgisini, yurd həsrətini, birbirimizə olan mənəvi bağlılığı silə bilməyib.

Ötən əsrin səksəninci illərinin sonlarına doğru keçmiş ittifaq məkanında adi olmayan proseslər gedirdi. Xalqların özünüdərk, özünütəsdiq hissləri güclənmişdi. Azərbaycan da milli azadlıq hərəkatının bu və ya digər şəkildə açıq müstəviyə keçdiyi respublikalar sırasında yer alırdı. Beləliklə, keçmiş SSRİ-nin süqutu ərəfəsində - 1989-cu il dekabrın son günlərində Araz sahillərində yaddaşımızda əbədi qalacaq hadisələr yaşandı. Arazın o tayından və bu tayından olan azərbaycanlılar onları ayı-


Нахчыван Мухтар Республикасы Али Мәчлисинин

ГӘРАРЫ

ПОСТАНОВЛЕНИЕ

Верховного Меджлиса Нахичеванской Автономной Республики

[illegible]

ran tikanlı çəpərləri dağıtdılar. Hava soyuq və şaxtalı olsa da, Arazın sahilində bir-birinə qovuşan azərbaycanlılar günlərlə orada qaldılar və birləşmək istədiklərini bütün dünyaya bəyan etdilər. 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü də məhz xalqımızın birləşmək istəyini simvolizə edir.

Zamanında Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qeyd edilməsi ideyasını gündəmə gətirən və müvafiq qərarın qəbul olunmasına nail olan Heydər Əliyevin həm keçmiş sovet, həm də Azərbaycanın müstəqilliyi dönəmində fəaliyyəti və Onun keçdiyi mənalı, zəngin həyat yolu hər bir azərbaycanlı üçün sonsuz qürur mənbəyidir. Siyasət dahisi olan Heydər Əliyev SSRİ kimi nəhəng bir dövlətin rəhbərliyində təmsil olunurdu. Həmin dövrdə milyonlarla azərbaycanlı Moskvadan verilən xəbər saatlarında mavi ekranların qarşısında əyləşərək Heydər Əliyevin çoxşaxəli və məhsuldar fəaliyyətini iftixar hissi ilə izləyirdi.

Heydər Əliyev hələ keçmiş sovet dönəmində Azərbaycana rəhbərlik etdiyi illərdə hansısa bir səbəbdən xaricdə yaşayan azərbaycanlıların ana Vətənlə əlaqələrinin qurulmasına, soydaşlarımız arasında milli-mənəvi bağların möhkəmlənməsinə çalışır və bunu rejimin ideoloji çərçivələrini nəzərə almaqla ilk növbədə bizi birləşdirən dəyərlərə - milli mədəniyyətimizə, dilimizə sonsuz qayğı göstərməklə edirdi.

İş elə gətirdi ki, sonrakı mərhələdə dünya azərbaycanlılarının həmrəyliyinin təmin olunması missiyasının praktiki müstəvidə reallaşdırılması da Heydər Əliyevin üzərinə düşdü. Onun təşəbbüsü ilə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına öz müsbət təsirini göstərdi. Bu təşəbbüs Azərbaycanın dövlət siyasətinin yeni bir istiqamətinə çevrildi. Qurultaydan sonra Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə xaricdəki soydaşlarımızla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (hazırda Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də isə "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da gücləndirdi.

### 50 milyonluq dünya azərbaycanlılarının Prezidenti

Həmrəylik günü milli birlik, Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət, Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirir. Öz növbəsində Azərbaycan dövləti, şəxsən Prezident İlham Əliyev dünya azərbaycanlıları arasında həmrəyliyin gücləndilməsinə, onların ana Vətənlə əlaqələrinin genişlənməsinə güclü siyasi iradə göstərir. Dövlətimizin başçısı 22 il bundan əvvəl Azərbaycan Prezidenti kimi ilk dəfə and içərkən 50 milyonluq dünya azərbaycanlılarının Prezidenti olduğunu qürurla bəyan edib. Ötən dövrdə dövlətimizin başçısı xaricdə yaşayan hər bir azərbaycanlının maraq və mənafeyinin qorunmasını Azərbaycan dövlətinin başlıca vəzifələrindən biri kimi müəyyənləşdirib. Prezident İlham Əliyevin bu istiqamətdə ortaya qoyduğu siyasi iradə ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımızda milli ruhun yüksəlməsinə, onların vahid ideologiya və məqsədlər ətrafında daha sıx səfərbər olmalarına böyük töhfə verir. Hədəf xaricdə yaşayan azərbaycanlıların diasporda lobbiyə çevrilməsidir. Prezident İlham Əliyevin "Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi haqqında" 2006-cı il 8 fevral tarixli Sərəncamına uyğun olaraq həmin il martın 16-da Bakıda baş tutan növbəti mötəbər toplantı xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni bir başlanğıcın əsasını qoydu və ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində əhəmiyyətli rol oynadı. Prezident İlham Əliyevin 2018-ci il 6 iyul tarixli Fərmanı ilə Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondu yaradılıb. Bu Fond Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinə dəstək vermək, onların maddi-texniki bazasını möhkəmləndirmək, millimənəvi dəyərlərimizi inkişaf etdirmək və dünyada daha geniş tanıtmaq, xaricdə yaşayan azərbaycanlıların sosial müdafiəsini gücləndirmək, bu sahəyə dövlət dəstəyinin ünvanlılığını təmin etmək məqsədilə yaradılıb. Dövlət başçımızın təşəbbüsü ilə 2019-cu ildə "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalı təsis edilib.

### Şuşada dünya azərbaycanlılarının Zəfər qurultayı

Dünya azərbaycanlılarının 2001-ci ildə Bakıda keçirilən birinci qurultayında Heydər Əliyev əminliklə bildirib ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Bu missiyanı xalqımız dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə reallaşdırmağa nail oldu. Artıq müstəqil Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam təmin edib. Şanlı Azərbaycan Bayrağının ölkənin bütün ərazisində əzəmətlə dalğalanması dünya azərbaycanlılarında sonsuz qürur hissi yaşadır.

Eyni zamanda, soydaşlarımız son dərəcə qürurludurlar ki, uzun işğal illərindən sonra dünya azərbaycanlılarının V qurultayı azad Şuşada keçirildi. 22 aprel 2022-ci ildə baş tutan qurultayın açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev Şuşadan dünya azərbaycanlılarını salamlayıb. Qurultay çərçivəsində "Post-müharibə dövründə Azərbaycan diasporunun qarşısında duran vəzifələr, fəaliyyət planı/yol xəritəsi", "Qarabağın bərpası və yenidən qurulmasında Azərbaycan diasporunun töhfələri" mövzularında panel icaslar da təşkil olunub. "Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə Zəfər adı xalqımıza çox yaraşır", - deyə Prezident İlham Əliyev dünya azərbaycanlılarına xitabən bildirib.

***Mübariz ABDULLAYEV***

# "16-cı NATO günləri"...
## Alyans ölkəmizin beynəlxalq təhlükəsizliyin təminatında rolunu yüksək qiymətləndirir

Azərbaycanın xarici siyasət startegiyasında təhlükəsizlik məsələlərinə hər zaman xüsusi diqqət yetirilir. Bu baxımdan, dövlətimiz NATO ilə əlaqələrə böyük önəm verib və bu əməkdaşlığı səmərəli və balanslaşdırılmış xarici siyasət üçün vacib faktor hesab edib. Ölkəmizin Alyans üçün önəmi isə qurumun rəsmi şəxsləri tərəfindən hər zaman vurğulanıb.

Qeyd edək ki, bugünlərdə "16-cı NATO günləri" çərçivəsində Alyansın Avropa Ali Müttəfiq Qüvvələr Komandanlığının (SHAPE) Qərargah rəisinin müavini - Tərəfdaşlıq İdarəsinin rəisi kontr-admiral Yusuf Karagüllenin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olub. Müdafiə Nazirliyindən verilən məlumata görə, səfərin məqsədi Azərbaycan ilə NATO arasında mövcud əməkdaşlığın inkişafı, tərəfdaşlıq proqramları üzrə öhdəliklərin icrası və qarşılıqlı təcrübə mübadiləsinin gücləndirilməsi olub. Səfər çərçivəsində nümayəndə heyəti ilə Müdafiə Nazirliyində, Heydər Əliyev adına Hərbi İnstitutda, eləcə də Quru Qoşunlarının və Hərbi Dəniz Qüvvələrinin tərkibində NATO-nun Əməliyyat İmkanları Konsepsiyası üzrə bəyan edilmiş bölmələrinin olduğu hərbi hissələrdə görüşlər keçirilib.

**Uğurlu tərəfdaşlıq...**

Tədbirlərdə qeyd olunub ki, Azərbaycan-NATO əməkdaşlığı çərçivəsində ölkəmiz beynəlxalq təhlükəsizliyin təminatında fəal iştirak edib. Azərbaycan Ordusunun şəxsi heyətinin sülhməramlı missiyalardakı fəaliyyəti qlobal təhlükəsizliyə dəyərli töhfə kimi qiymətləndirilib. Azərbaycanın NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramında fəal iştirakı, eləcə də ƏİK proqramı çərçivəsində əldə etdiyi nailiyyətlər də diqqətə çatdırılıb.

Görüşlərdə hərbi təhsil və təlim sahəsində əməkdaşlığın əhəmiyyəti vurğulanıb. Azərbaycan zabitlərinin NATO təlimləri və qərargahlarında iştiraklarının onların əməliyyat, idarəetmə və hərbi elmi biliklərinin zənginləşməsində faydalı olduğu qeyd edilib. Nümayəndə heyəti üçün müxtəlif brifinqlər və dəyirmi masa müzakirələri təşkil olunub.

Xatırladaq ki, Azərbaycanla NATO arasında tərəfdaşlığın əsası Ulu Öndər Heydər Əliyev tərəfindən 4 may 1994-cü il tarixində "Sülh naminə tərəfdaşlıq" (SNT) proqramının Çərçivə Sənədinin imzalanması ilə qoyulub. 1997-ci ildə isə Azərbaycan SNT Planlaşdırma və Analiz Prosesinə qoşulub. Ölkəmizin NATO ilə tərəfdaşlığı onun Avratlantik strukturlara inteqrasiya məqsədinə xidmət edir. Azərbaycan-NATO tərəfdaşlığında əsas istiqamətlər siyasi dialoq, sülhü dəstəkləmə əməliyyatları, meydana gələn təhlükəsizlik təhdidləri və əsas vurğusu müdafiə məsələlərinə yönələn genişspektrli məsələlər üzrə praktiki əməkdaşlıqdan ibarətdir. Qeyri-sabitliyin, münaqişələrin və təhdidlərin aradan qaldırılmasında Azərbaycanın qarşılıqlı maraqlar əsasında NATO ilə əməkdaşlıq məsələsi Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyası və Hərbi Doktrinasında öz əksini tapır. Beləliklə, Azərbaycanın hərbi qanunvericiliyi NATO standartlarından faydalanaraq daha da təkmilləşdirilib.

**Kosovo və Əfqanıstanda sülhə xidmət**

Azərbaycanın NATO ilə fərdi tərəfdaşlığının məqsəd və prinsipləri əsas etibarilə Azərbaycanın SNT Təqdimat Sənədi, Planlaşdırma və Analiz Prosesi və Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planında öz əksini tapır. Bu sənədlərdə Azərbaycan müdafiə və təhlükəsizlik sahəsində islahatlar aparılması, hərbi qüvvələrin NATO standartlarına uyğun inkişaf etdirilməsi, NATO əməliyyatlarında iştirak,




enerji təhlükəsizliyinin təmin olunması, fövqəladə hallara hazırlıq, meydana çıxan təhlükəsizlik çağırışları ilə mübarizə, eləcə də ətraf mühit və ictimai diplomatiya sahələrində əməkdaşlıq niyyətini ifadə edir. 1999-cu ildə Azərbaycan Kosovoda olan NATO-nun sülhməramlı əməliyyatlarına dəstək məqsədilə hərbi birlik göndərib. Bu əməliyyatlarda iştirak vasitəsilə Azərbaycan Silahlı Qüvvələri NATO qoşunları ilə ortaq əməliyyatlar keçirilməsi təcrübəsi əldə edib, NATO standartları ilə yaxından tanış olub və sülhməramlı qoşunlarımızın peşəkarlıq səviyyəsini artırıb.

2001-ci ildə Azərbaycan çoxmillətli "Qətiyyətli əməkdaşlıq - 2001" SNT hərbi təlimini həyata keçirib. 2002-ci ildə isə Azərbaycan Əfqanıstana NATO qüvvələrini dəstəkləmək məqsədilə hərbi birlik göndərib. 2003-cü ildə Azərbaycan Virtual İpək Yoluna qoşulub və növbəti il İstanbul zirvə görüşündə müttəfiq liderlər Qafqaza xüsusi diqqət ayırmışdılar. Belə ki, NATO-nun xüsusi nümayəndəsi və əlaqələndiricisi bölgəyə təyin olunmuşdu. Həmin il Prezident İlham Əliyev Brüsseldə Azərbaycanın ilk Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planını NATO-ya təqdim etmişdi. 2005-ci ildə isə Azərbaycan NATO ilə ilk dəfə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı çərçivəsində əməkdaşlığa başladı. Fərdi Tərəfdaşlıq və Əməkdaşlıq Proqramı NATO-ya üzv və bəzi tərəfdaş ölkələr tərəfindən təşkil edilən təcrübə mübadiləsi, hazırlığın artırılması, həmçinin ekspert müzakirələrinə xidmət edən tədbirlərdə iştiraka şərait yaradır.

**Ordumuzun güclənməsində əməkdaşlıq vacib rol oynayır**

Qeyd edək ki, Prezident İlham Əliyev Brüsselə səfərləri zamanı Alyansın rəhbərliyi ilə görüşüb, 2021-ci il dekabrın 14-də isə NATO-nun Şimali Atlantika Şurasının iclasında iştirak edib. Ötən ilin mart ayında da NATO-nun o vaxtkı Baş katibi Yens Stoltenberq ölkəmizə səfər edib. Səfər zamanı İlham Əliyevlə NATO Baş katibinin təkbətək görüşü olub, sonra mətbuata bəyanat zamanı Azərbaycan-NATO əlaqələri yüksək qiymətləndirilib.

Hal-hazırda NATO-nun təqdim etdiyi təhlükəsizlik sistemləri dünyanın inkişaf etmiş ölkələri tərəfindən tətbiq olunmaqdadır. Bu baxımdan Azərbaycan üçün Alyansla səmərəli əməkdaşlıq transsərhəd, dəniz və kiber sahələrdə təhlükəsizliyin təminatı baxımından faydalıdır. Digər tərəfdən, NATO üçün əhəmiyyətli starateji coğrafi mövqeyə malik, Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanla tərəfdaşlıq çox önəmlidir. Azərbaycanın əlverişli coğrafi mövqeyi, hərbi və iqtisadi imkanları NATO tərəfindən yüksək dəyərləndirilir.

Bütövlükdə, Azərbaycan dövləti Silahlı Qüvvələrin maddi-texniki təchizatının və kadr hazırlığının gücləndirilməsini həmişə diqqət mərkəzində saxlayır. Müstəqilliyimizin ilk illərindən indiyədək ordumuzun gücləndirilməsində NATO ilə əməkdaşlıq önəmli rol oynayıb. Beynəlxalq reytinq agentliklərinin dəyərləndirmələrinə görə bu gün Azərbaycanın Silahlı Qüvvələri dünyanın 50 ən güclü ordusu sırasında yer alır. Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində və bir günlük antiterror tədbirlərində özünün gücünü, yüksək peşəkarlığını nümayiş etdirərək ölkəmizin ərazi bütövlüyünü və suverenliyini təmin etdi. Müharibədə Silahlı Qüvvələrimiz tərəfindən innovativ texnologiyalardan geniş istifadə olundu. Əcnəbi mütəxəssislərin də qənaəti belədir ki, 44 gün ərzində Azərbaycan XXI əsrin müharibəsini apararaq qələbə qazanıb. Bir sözlə, Azərbaycan Ordusu regionda sabitlik və sülhün möhkəmlənməsinə xidmət göstərir.

***Nardar BAYRAMLI***

# Avrasiyada yeni iqtisadi nizamın açarı

## Zəngəzur dəhlizi (TRIPP): geoiqtisadi üstünlüklər, gələcək imkanlar...

Qlobal geosiyasi və geoiqtisadi proseslərin sürətlə dəyişdiyi müasir dövrdə nəqliyyat-kommunikasiya xətləri, xüsusilə qitələrarası birləşdirici funksiyaya malik logistik xətlər yeni iqtisadi nizamın əsas müəyyənedici faktorlarından birinə çevrilib. Yeni iqtisadi münasibətlər fonunda tədarük zəncirlərinin şaxələndirilməsi və alternativ marşrutların formalaşdırılması regional tranzit layihələrinin strateji əhəmiyyətini daha da artırır. Məhz bu kontekstdə Zəngəzur dəhlizi (TRIPP) təkcə regional kommunikasiya xətti deyil, Avrasiya məkanında formalaşan yeni iqtisadi arxitekturanın aparıcı elementlərindən biri kimi diqqət mərkəzinə çıxır. 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqazda yaranmış yeni reallıqlar Zəngəzur dəhlizini (TRIPP) tarixi zərurətə çevirib - bu layihə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa əlaqəni təmin etməklə yanaşı, bütövlükdə, regionun iqtisadi xəritəsini yenidən formalaşdırmaq potensialına malikdir. Zəngəzur dəhlizi (TRIPP) Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişmə nöqtəsində yerləşərək Asiya ilə Avropanı, Xəzər hövzəsi ilə Aralıq dənizi və Qara dəniz limanlarını birləşdirən mühüm tranzit qovşağa çevrilə bilər.

### Dəhliz bir neçə məqsədə eyni anda nail olmağa imkan verəcək...

Yeri gəlmişkən, Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə xüsusi nümayəndəsi Elçin Əmirbəyov Polşanın "TVP World" telekanalına verdiyi müsahibəsində bildirib ki, Zəngəzur dəhlizi bir neçə marşrutu özündə birləşdirən genişmiqyaslı layihədir. O xatırladıb ki, "Tramp Marşrutu" (TRIPP) - cari ilin avqustunda Vaşinqton sammitinin nəticələri üzrə həyata keçirilməsi barədə razılıq əldə olunmuş layihə - Zəngəzur dəhlizinin bir hissəsidir. "Zəngəzur dəhlizi bir neçə məqsədə eyni anda nail olmağa imkan verəcək. İlk növbədə, o, Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirəcək. Bu marşrut, həmçinin üç onillikdən sonra Ermənistanı və Azərbaycanı birləşdirəcək. Bundan əlavə, o, Asiyadan Avropaya alternativ marşrutlardan biri olacaq. Söhbət Asiya və Avropa arasında ticarət həcmlərinin hər iki istiqamətdə artmasına imkan verəcək mühüm nəqliyyat əlaqəsi halqasından gedir. Biz Cənubi Qafqazda möhkəm sülhün bərqərar olmasını istədiyimiz üçün, hər iki tərəf - Bakı və İrəvan - ABŞ-nin vasitəçiliyi ilə bu sülhün bərabər iqtisadi fayda və nəzərəçarpan nəticələr gətirməsi barədə razılığa gəldi. Düşünürəm ki, nəticə etibarilə bu, Ermənistan və Azərbaycan arasında müəyyən iqtisadi qarşılıqlı asılılığa gətirib çıxaracaq və onlar, məncə, vahid iqtisadi məkan kimi fəaliyyət göstərə bilərlər", - o qeyd edib.




Yeni iqtisadi nizam şəraitində dövlətlər üçün əsas prioritetlərdən biri logistika təhlükəsizliyi, daşımaların sürəti və xərclərin optimallaşdırılmasıdır. Zəngəzur dəhlizi (TRIPP) bu baxımdan yalnız Azərbaycan üçün deyil, bütövlükdə, geniş bir coğrafiyada əlavə iqtisadi üstünlüklər vəd edir. Dəhlizin işə düşməsi regional ticarət dövriyyəsini artırmaqla yanaşı, investisiya axınlarını sürətləndirəcək, sənaye kooperasiyasını gücləndirəcək və Cənubi Qafqazı qlobal iqtisadi proseslərin fəal iştirakçısına çevirəcək. Bu baxımdan Zəngəzur dəhlizi yeni iqtisadi nizamın yalnız bir elementi deyil, onun formalaşmasına təsir göstərən strateji iqtisadi layihə kimi qiymətləndirilir.

Bu ilin avqustunda Vaşinqtonda aparılan danışıqlar, sülh sazişi layihəsinin paraflanması və eləcə də, Zəngəzur dəhlizi (TRIPP) layihəsinin reallaşma-

### Vaşinqton danışıqları: Zəngəzur dəhlizinin (TRIPP) siyasi legitimliyinin təsdiqi...

sı ilə bağlı əldə edilən tarixi razılaşma Azərbaycanla yanaşı, bütün region üçün strateji dönüş nöqtəsi sayılır. Çünki nəzərdə tutulan yeni xətlər, əlaqələr ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında quru əlaqənin formalaşdırılması ilə yanaşı, həm də Avrasiya tranzit xəritəsini yenidən qurur. Açılacaq bu xətt həm də Azərbaycan vasitəsilə Mərkəzi Asiyanın Qərbə, Aralıq dənizinə və Qlobal cənuba daha sərfəli, daha təhlükəsiz çıxış əldə etməsinə imkan verir. Bu marşrut Mərkəzi Asiya ölkələrinin yüklərinin bir hissəsinin Naxçıvan üzərindən Türkiyəyə və oradan Avropaya daşınması kimi tamamilə yeni ticarət sxemlərini gündəmə gətirir. Elçin Əmirbəyov müsahibəsində deyib ki, 2025-ci il Bakı və İrəvan arasında münasibətlərdə, daha geniş mənada isə bütün Cənubi Qafqaz üçün dönüş ili kimi tarixə düşəcək. "Üç onillik münaqişə, rəqabət və qarşıdurmadan sonra Ermənistan və Azərbaycan sülh yaratmağa qərar verdilər. 8 avqust Vaşinqton sammiti liderlərin möhkəm və dönməz sülhə sadiqliklərini təsdiqlədiyi son dərəcə mühüm an oldu. Biz hesab edirik ki, bu, uzunmüddətli münasibətlərin yalnız başlanğıcıdır.

Münaqişənin əsas səbəbi - Ermənistan tərəfindən Azərbaycana ərazi iddiaları - aradan qaldırıldı. Ölkəmiz öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Bakı Ermənistan tərəfinə sülh sazişi layihəsi üzərində işə başlamağı təklif etdi. 2 il yarımlıq müzakirələrdən sonra, 2025-ci ilin martında tərəflər sülh sazişi layihəsinin mətnini razılaşdırdılar", - E.Əmirbəyov vurğulayıb. O əlavə edib, Vaşinqton sammiti zamanı Azərbaycan, Ermənistan və ABŞ liderləri bütün üç tərəfə uğurlu iqtisadi nəticələrə gətirəcək mühüm razılaşmalara nail olublar.



### Qlobal əhəmiyyətə malik dəhliz...

Avqust razılaşması artıq dəhlizin reallaşması ilə bağlı mühüm bir məsafənin qət olunduğunu deməyə əsas verir. Bu, eyni zamanda, Zəngəzur dəhlizinin (TRIPP) beynəlxalq miqyasda qəbul olunduğunu göstərir. Prezident İlham Əliyevin təşəbbüsü və səyi ilə ərsəyə gələn bu yeni iqtisadi meqalayihə Vaşinqton qlobal dəstək qazandı - Vaşinqton platformasında dəhlizə dair aparılan müzakirələr, imzalanan sənədlər həm də onun siyasi legitimliyini təsdiqləyir. Nəticə etibarı ilə, Zəngəzur dəhlizi (TRIPP) Azərbaycan üçün milli maraqların təminatı, region üçün sabitlik və inkişaf, dünya üçün isə yeni ticari yol, yeni əməkdaşlıq müstəvisi, yeni nəfəs deməkdir. Bu dəhliz həm iqtisadi, həm siyasi, həm də geostrateji baxımdan Cənubi Qafqazın gələcəyini müəyyənləşdirən əsas layihədir. Azərbaycanın qətiyyətli siyasəti nəticəsində reallaşan bu təşəbbüs paralel olaraq Türk dünyasını birləşdirməklə, regionun qlobal iqtisadiyyata inteqrasiyasını gücləndirməklə yanaşı, beynəlxalq əməkdaşlığa yeni nəfəs gətirəcək.

Təbii ki, prosesin öz axarında davam etməsi bəzi "qüvvələri" narahat etməyə bilməz: zaman-zaman dəhlizin potensialı, onun vacibliyi və gələcək münasibətlər sistemindəki yeri ilə bağlı qeyri-real dəyərləndirmələr də məhz bu narahtlıqdan irəli gəlir. Bəzi dövlətlər, eləcə də qeyri-adekvat mərkəzlər fərqli "siyasət adamlarının" dili ilə layihənin qiymətini, perspektivini pərdələməyə çalışır - amma bu alınmır. Çünki, Zəngəzur dəhlizi (TRIPP) artıq qlobal perspektiv daşıyır. Dəhliz Avrasiyanın geoiqtisadi xəritəsini yenidən formalaşdırmaq yanaşı Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən yeni qlobal körpü yaradır.

Paralel olaraq iqtisadi əməkdaşlıq və siyasi münasibətlərin sabitləşməsi üçün də ən güclü mexanizmlərdəndir Zəngəzur dəhlizi (TRIPP) məhz bu baxımdan da böyük önəm daşıyır. Bu layihə qütblərarası siyasi dialoqun intensivləşməsi, qarşılıqlı etimadın artması və münaqişə risklərinin azalması üçün vacibdir. Bu baxımdan Zəngəzur dəhlizi (TRIPP) həm Qafqazda geosiyasi balansın yenilənməsi, həm illərdir ki, rəqabətə çevrilmiş qitələrarası münasibətləri işgüzar modelinin formalaşdırılması, həm də yeni əməkdaşlıq mühitinin yaradılması üçün mühüm alət sayılır.

**Pərviz SADAYOĞLU**

## BTQ-nin fəaliyyəti ədalət və suverenlik prinsiplərinə əsaslanır

# Kolonializmin Belçika "üzü" - tarixdən dərs, gələcəyə çağırış...

Kolonializm müasir beynəlxalq münasibətlər sistemində artıq tarixə qovuşmalı, insanlığın geridə qoyduğu qaranlıq bir mərhələ kimi dəyərləndirilməlidir. Lakin formal müstəqilliklərə baxmayaraq, bu gün də dünyanın müxtəlif regionlarında neokolonial siyasət, iqtisadi asılılıq, siyasi təzyiq və mədəni identikliyin sıxışdırılması kimi halların davam etməsi göstərir ki, kolonializm tam aradan qalxmayıb. Bu tendensiya XXI əsrin əsas dəyərləri olan suverenlik, bərabərlik, beynəlxalq hüququn aliliyi prinsipləri ilə kəskin ziddiyyət təşkil edir və qlobal miqyasda qəbuledilməz hesab olunur.

Məhz bu reallıqlar fonunda kolonializmlə mübarizə artıq təkcə keçmişin deyil, bu günün və gələcəyin də aktual çağırışına çevrilib. İnkişaf etməkdə olan ölkələr, eləcə də uzun illər istismar və ayrı-seçkiliyə məruz qalmış xalqlar öz haqlı səslərini beynəlxalq platformalarda daha qətiyyətlə çatdırmağa çalışırlar. Bu prosesdə ədalətli mövqe sərgiləyən, prinsipial və ardıcıl siyasət yürüdən dövlətlərin rolu xüsusilə ön plana çıxır. Azərbaycan bu baxımdan beynəlxalq arenada fərqli və nümunəvi mövqe nümayiş etdirən ölkələr sırasındadır. Tarixində işğal, ədalətsizlik və ikili standartlarla üzləşmiş bir dövlət kimi Azərbaycan kolonializmin bütün formalarını qətiyyətlə rədd edir və bu mübarizədə fəal iştirak edir. Rəsmi Bakı kolonial siyasətin qurbanı olmuş xalqların səsini dünyaya çatdırmaqla yanaşı, bu məsələnin beynəlxalq gündəlikdə saxlanılmasına da mühüm töhfələr verir. Bu məqsədlə yaradılan Bakı Təşəbbüs Qrupu kolonializmə qarşı mübarizənin institusional və sistemli mərhələyə keçdiyini göstərən mühüm platforma kimi çıxış edir. Qrupun qısa müddət ərzində apardığı ardıcıl fəaliyyət, beynəlxalq tədbirlər, çağırışlar və prinsipial mövqeyi Azərbaycanın bu sahədə ön sıralarda təmsil olunduğunu təsdiqləyir və ölkəmizin qlobal ədalət, bərabərlik və azadlıq uğrunda mübarizədə artan rolunu bir daha nümayiş etdirir.

### Konqodan zorla gətirilən 267 şəxs "canlı eksponat" kimi nümayiş etdirilib...

Yeri gəlmişkən, Bakı Təşəbbüs Qrupu Belçika müstəmləkəçiliyinin törətdiyi vəhşiliklərlə bağlı araşdırmalarını davam etdirir. Toplanan faktlar sübut edir ki, ən qəddar, insanlıq adına ləkə olan cinayətlər Belçika kralları tərəfindən törədilib. Belçika müstəmləkəçiliyi Avropa imperiyaları içərisində yeganə şəxsi monarx mülkü olması, misli görünməmiş sistemli vəhşilik və irqi alçaltma təcrübələrinin açıq şəkildə Avropanın mərkəzində təkrarlanması ilə digər müstəmləkəçilik modellərindən kəskin şəkildə fərqlənən ən qaranlıq və utancverici nümunələrdən biri kimi tarixdə yer alıb. Bu qaranlıq və utancverici səhifələrdən biri də "insan zooparkları"dır. Belə ki, 1897-ci ildə II Leopoldun şəxsi təşəbbüsü və əmri ilə Konqodan zorla gətirilən 267 nəfər Brüsselin Tervüren bölgəsində keçirilən Dünya Sərgisində "canlı eksponat" kimi nümayiş etdirilib. Onlar Avropanın soyuq havasında, yarıçılpaq vəziyyətdə, taxta hasarların arxasında heyvan kimi tamaşaçıların seyr obyektinə çevrilib, ləyaqətləri ayaqlar altına atılıb. Bu barbar nümayiş nəticəsində ən azı yeddi konqolu, o cümlədən uşaqlar pnevmoniya, qrip və digər xəstəliklərdən dəhşətli əzablar içində can verib, cəsədləri isə gizlicə basdırılıb. Beləliklə, II Leopoldun "sivilizasiya missiyası" adı altında qurduğu bu insan zooparkı Avropanın mərkəzində açıq-aşkar irqi alçaltma və soyqırımının rəmzinə çevrilib.




### 20 min uşaq zorla ailələrindən alınaraq Belçikaya aparılıb

İnsan zooparkının yerləşdiyi Tervüren ərazisində sonradan daimi muzey təsis edilib. Əvvəlcə "Konqo Muzeyi", sonralar isə "Mərkəzi Afrika üzrə Kral Muzeyi" müstəmləkəçi ideologiyanın təbliğat mərkəzi kimi fəaliyyət göstərib. 1958-ci ildə Brüsseldə təşkil olunan "Expo 58" Ümumdünya Sərgisi çərçivəsində də eyni xarakterli insan nümayişi təkrarlanıb. Bu dəfə Konqodan gətirilən 598 nəfər - 273 kişi, 128 qadın və 197 uşaqdan ibarət 183 ailə yenidən "canlı eksponat" statusunda Avropa ictimaiyyətinə təqdim edilib. Beləliklə, 1897-ci ildə Tervüren də başlanmış ilk "insan zooparkı" təcrübəsi heç də təsadüfi və ya müvəqqəti hadisə deyil, Belçikanın müstəmləkəçilik siyasətinin strukturuna dərin kök salıb, onun sistemli, institusionallaşmış və uzunmüddətli tərkib hissəsini təşkil edib. Bu praktika irqi iyerarxiya və "sivilizasiya missiyası" ideologiyasının vizual təcəssümü olaraq, XX əsrin ortalarına qədər davam etdirilib.

Qeyd edək ki, 1959-1962-ci illərdə Belçikanın müstəmləkə idarəçiliyi altında olmuş Burundi, Konqo və Ruanda ərazilərində ağdərili atalar və qaradərili analardan doğulmuş təxminən 20 min uşağın ailələrindən zorla ayrılaraq Belçikaya aparıldığı və övladlığa verildiyi barədə faktlar mövcuddur. Bu uşaqların köçürülməsi valideynlərin razılığı olmadan həyata keçirilib və onların ailə bağlarının, kimliklərinin və mədəni mənsubiyyətlərinin ciddi şəkildə pozulmasına səbəb olub. Sadalanan hallar Belçikanın müstəmləkəçilik siyasətinin sistemli şəkildə irqçi yanaşmalara, insan hüquqlarının pozulmasına və insan ləyaqətinin tapdalanmasına əsaslandığını açıq şəkildə nümayiş etdirir.

### Afrika ölkələri tələb edir...

Təsadüfi deyil ki, bir müddət öncə ölkəmizdə ilk dəfə olaraq Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə Belçikanın müstəmləkə keçmişinə və onun bu günə qədər davam edən ağır fəsadlarına həsr olunmuş "Belçika müstəmləkəçiliyi: tanınma və məsuliyyət" adlı beynəlxalq konfrans keçirilib. Konfransda Belçikanın keçmiş müstəmləkələri - Konqo Demokratik Respublikası, Ruanda və Burundidən olan nümayəndələr, diplomatlar və rəsmi şəxslər iştirak ediblər. Ümumilikdə, tədbirə 8 ölkədən beynəlxalq hüquq üzrə ixtisaslaşmış mütəxəssislər, tarixçilər, tədqiqatçılar, vətəndaş cəmiyyəti fəalları və reparasiya məsələləri üzrə ekspertlər qatılıblar. İştirakçılar Belçikanın müstəmləkə dövründə törətdiyi cinayətləri, onun neokolonial siyasətini və müstəmləkəçilikdən irəli gələn kompensasiya (reparasiya) məsələlərini müzakirə ediblər. Tədbirdə vurğulanıb ki, kolonial cinayətlərin tanınmasından sonra müstəmləkəyə çevrilmiş ölkə ictimai üzr tələb edir. İctimai üzrdən sonra konkret kompensasiyalar tələb olunur.

Xüsusilə, Konqo nümayəndələri bildiriblər ki, Belçika ilə koloniyalaşdırılmış ölkələr arasında ədalət, suverenlik və qarşılıqlı hörmət əsasında real əməkdaşlıq müqavilələri yaratmaq lazımdır. Hazırda mövcud olan bütün müqavilələr kolonializmin izlərini daşıyır. Onlar qəti şəkildə müstəmləkəçiliyin dəyişdirilməli olduğunu qeyd ediblər.

Tarixi faktlara görə, Belçikanın müstəmləkə siyasəti nəticəsində Konqo Demokratik Respublikasında 10 milyondan çox insanın ölümü, on minlərlə insanın əllərinin kəsilməsi və ölkənin mədəni resurslarının talan edilməsi kimi ağır cinayətlər baş verib. BMT-nin 2019-cu ildə dərc etdiyi hesabatda Belçikanın keçmiş müstəmləkələrinə vurduğu zərərlərlə bağlı faktların araşdırılması, arxivlərin açılması və təzminat ödənilməsi tövsiyə olunur. Hesabatda Konqo Demokratik Respublikası üçün 500 milyard avro, Burundi üçün isə 36 milyard avro həcmində reparasiya tələbi irəli sürülüb. Bununla yanaşı, Belçikanın keçmiş müstəmləkə ərazilərində, xüsusilə kobalt mədənlərinin 80 faizinə nəzarət etməklə neokolonial istismar siyasətini davam etdirir.

**SADİQ**

# ÜDM-in həcmi 116 milyard manatı ötüb

2025-ci ilin yanvar-oktyabr aylarında ölkəmizdə 116 milyard 320 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,6 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,8 faiz azalsa da, qeyri neft-qaz sektorunda isə 3,2 faiz artıb. Belə ki, ÜDM istehsalının 34 faizi sənaye, 10,6 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 7,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 6,5 faizi tikinti, 2,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,9 faizi informasiya və rabitə sahələrinin, 21,1 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,5 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 11 min 356,4 manata bərabər olub.

## Qeyri-neft sənayesində artan əlavə dəyər

ÜDM-in əsas drayveri və ağırlıq mərkəzi qeyri-neft sektorunun payına düşüb. Belə ki, 116 milyard manatlıq əlavə dəyərin təxminən 70 faizi qeyri-neft mənbələrinin üzərində cəmləşib ki, bu da nominal ifadədə 80 milyard manata yaxın milli məhsul deməkdir. ÜDM-də əsas sahələrdən biri olan sənaye sektorunda məhsul həcmi 57,5 milyard manatı üstələyib. Qeyri neft-qaz sənayesində əlavə dəyər 4,8 faiz artıb. Bu amil də sənayeləşmənin əsas strukturlarının qeyri-neft sütunları üzərində inkişaf etdiyini təsdiqləyir.

Xüsusilə də ölkəmizin sənaye potensialının və iqtisadi gəlirlərinin artmasında sənaye parklarının rolunun artması ümumi qeyri-neft sənayesinin dinamikasını artırır. Həmçinin Hacıqabul Sənaye Məhəlləsinin əsasında Hacıqabul Sənaye Parkının yaradılması, azad ərazilərdəki sənaye vektorlarının, xüsusilə də Ağdam Sənaye Parkında-kı 5-dən artıq müəssisənin fəaliyyətə başlaması, həmçinin "Araz Vadisi İqtisadi Zonası"nda rezidentlərin ilk istehsal mallarının tədarükünün başlanması ümumi sənaye potensialının yüksəlməsi və ixracının artmasında öz rolunu göstərməkdədir. Qeyri-neft sənayesinin inkişafı ümumilikdə, neftdənkənar mənbələrin hazırda həm də əsas əlavə dəyər formalaşdıran fiskal sahə olduğunu göstərir.

## 175 ölkə ilə xarici ticarət mübadiləsi aparılıb

2025-ci ilin yanvar-oktyabr aylarında Azərbaycan dünyanın 175 ölkəsi ilə ticarət əməliyyatları həyata keçirib, 120 ölkəyə məhsul ixrac olunub, 170 ölkədən idxal olunub. Xarici ticarət dövriyyəsi 39,9 milyard dollar təşkil edib. Ticarət dövriyyəsinin 20,7 milyard dolları və ya 51,8 faizi ixracın, 19,2 milyard dolları və ya 48,2 faizi idxalın payınba düşüb. Xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 3,9 faiz artıb, real ifadədə isə 7,9 faiz azalıb. Qeyri-neft-qaz məhsullarının ixracı 2 milyard 987,8 milyon dollar təşkil edib və 2024-cü ilin eyni dövrünə nisbətən faktiki qiymətlərlə 6,6 faiz artıb.

Azərbaycanın xarici ticarət dövriyyəsinin 25,8 faizi İtaliya, 11,7 faizi Türkiyə, 10,2 faizi Rusiya, 9,3 faizi Çin, 3,0 faizi Almaniya, 2,6 faizi ABŞ, 2,5 faizi Birləşmiş Krallıq, 2,1 faizi İsveçrə, hər biri 1,9 faiz olmaqla Avstraliya və Çexiya, hər biri 1,7 faiz olmaqla Gürcüstan və Yunanıstan, hər biri 1,6 faiz olmaqla Bolqarıstan və Xorvatiya, 1,5 faizi Qazaxıstan, 1,4 faizi Rumıniya, 1,3 faizi İran, 1,2 faizi Özbəkistan, hər biri 1,1 faiz olmaqla Portuqaliya və Ukrayna, 0,9 faizi Fransa, hər biri 0,8 faiz olmaqla Belarus və Hindistan, 12,3 faizi isə digər ölkələr ilə aparılmış ticarət əməliyyatlarının payına düşüb.










## Büdcədə qeyri-neft yığımları 11 milyard manatı üstələyib

2025-ci ilin yanvar-noyabr aylarında fiskal yığımların artımında da yüksək dinamika qeydə alınıb. Bu dövrdə xəzinədarlıq orqanları tərəfindən 1 milyon 436 mindən çox ödəniş tapşırığı icra edilib və dövlət büdcəsinin gəlirlərinin icrasında yüksək göstəricilər qeydə alınıb. Dövlət büdcəsinin gəlirləri 35 milyard 625,6 milyon manat təşkil edib ki, bu da 11 aylıq proqnozu 324,6 milyon manat və ya 0,9 faiz üstələyib. Büdcə gəlirlərində vergi orqanının xətti ilə daxilolmalar 15 milyard 310,5 milyon manat təşkil edərək proqnozdan 745,5 milyon manat və ya 5,1 faiz çox olub. Qeyri-neft-qaz sektorundan daxilolmalar 11 milyard 187,6 milyon manat olub, proqnoz 2,7 faiz artıq icra edilib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 8,7 faiz artıb.

Dövlət Neft Fondundan transfert isə 13 milyard 274,3 milyon manat təşkil edərək proqnoza qarşı 100 faiz icra edilib. Eyni zamanda, Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar 5 752,2 milyon manat təşkil edib.

Ötən 11 ayda dövlət büdcəsinin xərcləri 31 milyard 414,7 milyon manat məbləğində icra edilib ki, bu da ötən ilin anoloji dövrü ilə müqayisədə 376,6 milyon manat və ya 1,2 faiz çoxdur. Yanvar-noyabr ayları ərzində icmal büdcənin gəlirləri 43 milyard 855,2 milyon manat təşkil edib ki, bu da 11 aylıq proqnozu 2 milyard 526 milyon manat və ya 6,1 faiz üstələyib. İcmal büdcənin xərcləri isə 36 milyard 784,3 milyon manat məbləğində icra edilib ki, bu da ötən ilin 11 aylıq icra göstəriciləri ilə müqayisədə 1 milyard 397,6 milyon manat və ya 3,9 faiz çoxdur.

## Orta aylıq əməkhaqqı 9,4 faiz artıb

2025-ci ilin yanvar-noyabr aylarında əhalinin nominal gəlirlərində, bank əmanətlərində, ünvanlı sosial yardımın məbləğində, muzdlu işçilərin orta aylıq əməkhaqqında da artımlar qeydə alınıb. Əhalinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 8,1 faiz artaraq 80 milyard 747,2 milyon manat təşkil edib. Ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 782,4 min nəfər təşkil edib, onlardan 865,7 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 916,7 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Muzdla işləyənlərin 18,8 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 18,1 faizi təhsil, 14 faizi sənaye, 8,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,7 faizi tikinti, 6,3 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 4 faizi peşə, elmi və texniki fəaliyyət, 2,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,3 faizi maliyyə və sığorta fəaliyyəti, 14,3 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olanlardır.

Qeyd edilən dövrdə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,4 faiz artaraq 1086,3 manat təşkil edib. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

2025-ci ilin noyabr ayında istehlak qiymətləri indeksi 2024-cü ilin noyabr ayına nisbətən 5,5 faiz, o cümlədən qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 7,1 faiz, qeyri-qida məhsulları üzrə 2,5 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 5,7 faiz təşkil edib. Nəticədə həm əhalinin orta aylıq əməkhaqqı, həm də real gəlirləri inflyasiyanı üstələməklə onların sosial rifah vəziyyətinə müsbət təsir edib.

## Sosial sığorta yığımları 12 faizə yaxın çoxalıb

2025-ci ilin yanvar-noyabr aylarında muzdlu işçi sayının və əməkhaqqı fondunun "ağarması" prosesi şəraitində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 5 milyard 733,6 milyon manat təşkil edib. Bu mənbədən daxilolmalar əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11,7 faiz və ya 601,3 milyon manat artıb. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar ötən ilin eyni dövrünə nisbətən 12,3 faiz artaraq 3 milyard 832,2 milyon manat olub.

İşsizlikdən sığorta haqları üzrə daxilolmalar 2024-cü ilin eyni dövrü ilə müqayisədə 10,4 faiz artaraq 203 milyon manat təşkil edib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 11,4 faiz artıb və 155 milyon manat olub.

İcbari tibbi sığorta haqları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 10,1 faiz artaraq 1 milyard 6,3 milyon manat olub. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 9,6 faiz artıb və 713,7 milyon manat təşkil edib.

**ELBRUS CƏFƏRLİ**

# Etibarlı tərəfdaşlığın yeni mərhələsi

## Azərbaycan və Böyük Britaniya iqtisadi əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirir

Azərbaycan və Böyük Britaniya arasındakı münasibətlər qarşılıqlı etimad sütunları üzərində yüksələn xətlə inkişaf edir. Birləşmiş Krallıq ölkəmiz arasında formalaşmış güclü iqtisadi, siyasi dialoqlar həm də regional əməkdaşlığa töhfələr verməkdədir. Hazırda hər iki dövlət yüksəksəviyyəli əməkdaşlıqlar münasibətlərini daha da inkişaf etdirmək üçün ənənəvi neft-qaz sahəsi ilə yanaşı, ticarət və mühəndislik, bərpaolunan enerji, innovasiya və rəqəmsal texnologiyalar, "yaşıl enerji" infrastrukturlarının qurulmasında uzunmüddətli əməkdaşlığa önəm verir.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan və Mərkəzi Asiya ölkələri üzrə ticarət elçisi Lord Con Olderdaysın respublikamıza səfəri çərçivəsində keçirdiyi görüşlər olduqca maraqlı və yaddaqalan olub.

Böyük Britaniyanın ticarət elçisinin iqtisadiyyat naziri Mikayıl Cabbarovla görüşündə isə qarşılıqlı iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsinin vacibliyinə toxunulub. Qeyd olunub ki, müxtəlif istiqamətlər üzrə tərəfdaşlıq münasibətlərinin gücləndirilməsi üçün böyük potensial var. Ticarət elçisinə Azərbaycanın Mərkəzi Asiya regionu ilə səmərəli əməkdaşlığına dair məlumat verilib və birgə təşəbbüslərin perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Tərəflər iqtisadi əməkdaşlığın gündəmində olan prioritet fəaliyyət istiqamətləri, o cümlədən Birləşmiş Krallığın İxrac Maliyyəsi Departamenti (UKEF) ilə səmərəli əməkdaşlıq, enerji keçidi, insan kapitalının inkişafı, Ələt Azad İqtisadi Zonası və sənaye zonalarında investisiya imkanları, biznes, ticarət, yüksək texnologiyalar və rəqəmsal transformasiya üzrə birgə fəaliyyətin təşviqi barədə müzakirə aparılıb.

**Britaniya Zəngəzur dəhlizini dəstəkləyir**

Cənab Olderdaysın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyində görüşündə son 20 ildə ölkəmizdə nəqliyyat və kommunikasiya infrastrukturuna yatırılan sərmayələr və həyata keçirilən layihələr barədə ətraflı məlumat verilib. Azərbaycanın Mərkəzi Asiya, eləcə də Orta Dəhliz üzərində yerləşən digər ölkələrlə fəal əməkdaşlığı nəticəsində son illərdə bu dəhlizlə daşımaların həcminin bir neçə dəfə artdığı qeyd olunub.

Görüşdə Zəngəzur dəhlizinin tikintisi üzrə görülən işlər barədə məlumat verilib, layihənin regional kommunikasiyaların şaxələndirilməsinə, eləcə də bölgədə davamlı sülh və rifahın bərqərar olmasına töhfə verəcəyi diqqətə çatdırılıb. Həmçinin Azərbaycanla Birləşmiş Krallıq arasında tərəfdaşlığın gündəliyində olan prioritet fəaliyyət istiqamətləri, o cümlədən aviasiya və dəmir yolu nəqliyyatı, süni intellekt, kibertəhlükəsizlik, rəqəmsal bilik və bacarıqlara malik insan kapitalının inkişafı üzrə birgə fəaliyyətin perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Bildirilib ki, Azərbaycanla Ermənistan arasında sülh gündəliyi çərçivəsində əldə olunan razılaşmalar London üçün də mühüm əhəmiyyət daşıyır, hazırda işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı quruculuq işlərinə töhfə verən Böyük Britaniya şirkətləri yeni rifah və əməkdaşlıq layihələrində daha geniş təmsil olunmaq fürsəti qazanmış olacaq.

**İngilis şirkəti Naxçıvanda "yaşıl enerji" layihəsində...**

Con Olderdaysun Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilovla görüşü də investisiya və ticari məsələlərə diqqət çəkjilib. Görüşdə Böyük Britaniyanın "Xlinks" şirkətinin nümayəndə heyətinin təmsil olunması isə Naxçıvanda "yaşıl enerji"yə ingilis sərmayəçilərinin xüsusi marağının göstəricisi kimi qiymətləndirilə bilər. Məlumdur ki, "Xlinks" dünyada bərpaolunan enerjinin emalı və nəqli üzrə ixtisaslaşmış infrastruktur korporasiyası kimi dünyada nüfuz qazanıb. Böyük Britaniya-Danimarka arasında 765 km uzunluğunda və 1.4 QVt ötürmə gücü olan "Viking Link" interkonnektorlarının inşasında zəngin təcrübəyə malikdir.



Şirkət Azərbaycanda bərpaolunan enerji sektoruna böyük maraq göstərir və bir müddət əvvəl "Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti"nin təsisçilərindən biri olan Azərbaycan hökuməti ilə "Xlinks" şirkəti arasında Anlaşma Memorandumu imzalanıb. Memoranduma əsasən, alternativ enerji infrastruktur sahəsində əməkdaşlıq imkanlarının araşdırılması, məlumat mübadiləsi, texniki qiymətləndirmələrin aparılması nəzərdə tutulur.

İngilislər "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinə də xüsusi diqqət göstərir, layihə çərçivəsində Naxçıvandan əldə ediləcək "yaşıl enerji" mübadilə mənbələrinin istismarında təmsil olunmaq niyyətindədir. Bu baxımdan "Xlinks" şirkətinin Muxtar Respublikada fəaliyyəti bölgənin enerji mənbələrinin şaxələnməsi və nəqlində mühüm mərhələ aça bilər. Naxçıvanın Zəngəzur dəhlizinin mühüm bir seqmenti olması isə ingilislərin bölgəyə strateji marağını daha da artırır. Çünki Birləşmiş Krallıq Orta Dəhliz üzərindən Asiya və Şərq coğrafiyalarında böyükhəcmli daşınmalar həyata keçirir ki, Naxçıvan sərfəli və asan kommunikasiya qovşağı kimi logistik bağlantıları daha da yaxşılaşdıracaq.

**Mülki aviasiya sahəsində etibarlı tərəfdaşlıq**

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan və Mərkəzi Asiya üzrə ticarət elçisi Lord Con Olderdaysın Milli Aviasiya Akademiyasının (MAA) rektoru Arif Paşayevlə görüşündə isə mülki aviasiya sahəsində birgə əməkdaşlığın uğurlarına və perspektiv imkanlara toxunulub. Böyük Britaniya şirkətlərinin AZAL, "Silk Way Holding" və Milli Aviasiya Akademiyası ilə çoxillik səmərəli əlaqələri müsbət dəyərləndirilib. Bildirilib ki, 2000-ci ildən sonra Azərbaycan "Boeing 757" təyyarələrinin istismarına başlamaqla Böyük Britaniyanın "Rolls-Roys" şirkəti ilə sıx işbirliyi qurub. İngilis şirkətləri ilə uçuşların təhlükəsizliyinin idarə olunmasında, naviqasiya sistemlərinin və aeroportların əməliyyat strukturlarının təkmilləşdirilməsi, təyyarələrin uçuş yararlığının saxlanılması və digər vacib istiqamətlərdə də səmərəli əməkdaşlıq qurulub.

2009-2010-cu illərdə MAA-da Böyük Britaniyanın "Thales" şirkətinin istehsalı olan "Airbus A320", "Boeing 757/767" və "ATR 42/72" hava gəmilərinin uçuş simulyatorları quraşdırılıb, son 2 ildə "Acron Aviation" şirkətinin daha 3 trenajoru - "Boeing 777-200LR/F/300ER", "Boeing 787-9" təyyarələrinin simulyatorları və "Airbus A320" təyyarəsinin FPT prosedur trenajoru MAA-da quraşdırılıb. Akademiyanın Təlim Mərkəzində hazırda fəaliyyət göstərən 8 uçuş simulyatorundan 5-i "Acron Aviation" şirkətinə məxsusdur. MAA-nın uçuş trenajorlarının ilk beynəlxalq sertifikasiyası da məhz İngiltərənin mülki aviasiya agentliyi tərəfindən həyata keçirilib. Bunlarla yanaşı, AZAL, "Silk Way Holding" və MAA mütəxəssisləri Böyük Britaniya şirkətlərində uçuş və texniki heyətin, təlimatçıların, mühəndislərin, peşəkar ingilis dili müəllimlərinin hazırlığı və digər təlimlərdə iştirak edir.

**E.CƏFƏRLİ**

# Qloballaşan mühitdə dəyərlərimizi necə qoruyaq?

Uşaqların formalaşan dünyagörüşü, həyata baxışı və davranış modeli ailədə və cəmiyyətdə gördüyü nümunələr üzərində qurulur. Bu baxımdan Azərbaycan cəmiyyəti özünəməxsus dəyərlər sistemi ilə seçilir. Həmin dəyərlər uşaqların mənəvi inkişafında mühüm rol oynayır.

Digər ölkələrin cəmiyyətləri ilə müqayisədə Azərbaycanda ailə institutu hələ də aparıcı mövqeyini qoruyub saxlayır. Böyüyə hörmət, kiçiyə qayğı, ailə birliyi, valideyn sözünün çəkisi uşaqların tərbiyəsində əsas prinsiplər kimi qəbul olunur.

Cəmiyyətimizdə mənəvi dəyərlər yalnız ailə daxilində deyil, həm də ictimai mühitdə geniş şəkildə təbliğ olunur. Qloballaşmanın təsiri ilə bir çox ölkədə ənənəvi dəyərlərin zəiflədiyi halda, sevindirici haldır ki, ölkəmizdə bu dəyərlər yaşadılır. Uşaqlara həm dünyaya açıq olmaq, həm də kimliyimizi qorumaq aşılanır. Bu balans onların mənəvi inkişafında sağlam psixoloji mühit yaradır və mənəvi boşluqların qarşısını alır.

## Mənəviyyatla böyüyən nəsil...

### Azərbaycan cəmiyyəti fərqlənir

## Əldə olanlarla kifayətlənməli deyilik...

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən sosioloq Nail Cəlil bildirib ki, uşaqların və gənclərin mənəvi inkişafı bütün dövrlərdə cəmiyyət üçün aktual olan bir məsələdir. Onun sözlərinə görə, gənclərin mənəvi inkişafından danışdıqda, zamanın tələblərini nəzərə almaq vacibdir: "Ölkəmizdə gənclərin dövlət idarəçiliyində olması bu gün bizim üçün vacib istiqamətlərdən biridir. Zaman və dövr dəyişdikcə, gənclərimizin müsbət hədəfləri ilə yanaşı müəyyən qayğıları da olu. Odur ki, bəzi ölkələri təqib edib onlarla ayaqlaşmaq da vacibdir. Gənclərin bəzilərinin təhsil, karyera hədəfləri üçün xaricə üz tutması faktı var. Onları ölkəmizə yönəltmək istəyiriksə, əldə olanlarla kifayətlənməli deyilik. Çalışmalıyıq ki, peşə, uğurlu karyera, sahibkarlıq fəaliyyətinin təşviqi istiqamətində, gənclərin bu sferada özünü təsdiq etməsi üçün müəyyəna adımlar atılsın. Təbii ki, dövlətimiz də bu istiqamətdə mühüm işlər görür. Amma sadəcə dövlətin gördüyü işlərlə kifayətlənmək olmaz. Yeni nəslin mənəvi inkişafı üçün onların ideoloji əsaslara söykənməyi vacibdir. Uşaqların, yeniyetmələrin mənəvi inkişafı maddi və sosial rifahla tamamlanmalıdır. Bu istiqamətdə nə qədər çox çalışıb praktik addımlar atsaq, kadr seçimində düzgün təsnifat apararaq gənclərin elm və təhsil baxımından yaxşı irəliləməsinə, karyeralarını ritmik qurmalarına, mənəvi baxımdan maraqlarının dəstəklənməsinə yol açarıq. Bütün bunlar isə onların hərtərəfli inkişafı üçün daha faydalı şərait yaratmaq anlamına gəlir".



## Sabahımıza qoyulan ən dəyərli sərmayə

Sosioloq qeyd edib ki, gənclər hər bir halda cəmiyyətin öndə gedən avanqard qüvvəsidir: "Amma onların mənəvi inkişafı sırf ideoloji bir faktordur və dövlətin gənclərlə bağlı siyasəti ilə birbaşa əlaqədar olan məsələdir. Təbii ki, yeni ideologiya, yeni axtarışlar astanasındayıq. Lakin azərbaycançılıq ideologiyasının milli maraqlar çərçivəsində inkişaf etdirilməsi, sivil dəyərlərlə uzlaşması və mənəvi dəyərlərin daha geniş yayılması üçün cəmiyyətin sağlam təsisatlanmasına ehtiyac var. Son dövrlər cəmiyyətdə bəzi deqradasiyalar olur. Məsələn, gənclərin ailə həyatına münasibətinin müəyyən dərəcədə dəyişməsi, gənclərin işlə bağlı bəzi çətinliklərlə üzləşməsi kimi çətinlikləri qeyd edə bilərik. Bütün bunların fonunda görəcəyimiz işlər odur ki, mənəvi inkişafı üçün düzgün təbliğat qurmalıyıq. Milli ideologiyamızın qlobal bəşəri dəyərlərlə bərabər əlaqə sintezini düzgün müəyyənləşdirmək və gənclərin mənəvi tərbiyəsində milli və sosial təhlükəsizlik maraqlarını bərabər tutmaq vacibdir. Yəni, sosial iqtisadi rifahı ilə yanaşı onların mənəvi inkiafını daha da stimullaşdırmaq vacibdir. Təbii ki, dəyərlərimiz hər zaman öndədir, amma gənclərin karyera hədəfləri ilə yanaşı ən əlverişli və mümkün şəraiti də qurmaq lazımdır. Bütün bunlar gənclərin mənəvi inkişafına daha böyük töhfə verər.

Nəticə etibarilə qeyd edə bilərik ki, cəmiyyətimizdə uşaqlar fərqli bir ruhda, milli-mənəvi dəyərlərə söykənən, ailəyə və Vətənə bağlı, hörmət və mərhəmət hissi güclü olan fərdlər kimi tərbiyə olunurlar. Bu dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi isə təkcə ailələrin deyil, bütün cəmiyyətin üzərinə düşən mühüm bir vəzifədir. Uşaqların mənəvi inkişafına göstərilən bu diqqət əslində, Azərbaycanın sabahına qoyulan ən dəyərli sərmayədir".

**Yeganə**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti üzrə hazırlanmışdır**

# Sidney terrorunda "İŞİD" izi...

Avstraliyanın Sidney şəhərində qanlı terror hadisəsi baş verib. Belə ki, dekabrın 14-də "Bondi" çimərliyində yəhudilərin Hanuka bayramı qeyd edilən zaman insanlara atəş açılıb. Bayram tədbirində təxminən iki minə qədər yəhudinin iştirak etdiyi bildirilir. İki nəfərin hücumu nəticəsində son məlumatlara görə, 16 nəfər həlak olub, 40-dan çox insan isə yaralanıb.

Həlak olanlar arasında 10 yaşlı qız, təqaüddə olan polis əməkdaşı və Holokostdan sağ çıxmış bir nəfər də olub. Hadisə zamanı təsadüfən orada olan Ahmed əl Ahmedin valideynləri isə oğullarının hücum edən şəxslərdən birinin silahını almağa çalışarkən çiynindən 4-5 dəfə güllələndiyini bildiriblər. Onun cəsarətli müdaxiləsi daha böyük faciənin qarşısını alıb.

Hadisə terror aktı kimi dəyərləndirilir. Təhlükəsizlik tədbirləri çərçivəsində "Bondi" çimərliyi və ətraf ərazilər müvəqqəti olaraq bağlanıb, istintaq tədbirləri davam etdirilir.

## Cinayətkarlar ata və oğuldur

Hadisəni törədənlər isə ata və oğuldur. Polis əməkdaşlarının müdaxiləsi nəticəsində silahlı şəxslərdən biri hadisə yerində zərərsizləşdirilib. Digər hücumçu isə ağır yaralanaraq polis nəzarəti altında xəstəxanaya çatdırılıb. Terrorçular 50 yaşlı Sacid Akram və onun 24 yaşlı oğlu Navid Akramdır. Ata Sacid Akram polis tərəfindən güllələnərək hadisə yerində öldürülüb, oğul Navid Akram isə yaralı vəziyyətdə xəstəxanaya yerləşdirilib, onun vəziyyəti kritik olaraq qalır.

Məlumatlara əsasən, ata və oğul İŞİD terror qruplaşmasına bağlı olublar. Hücumçuların avtomobilində sözügedən terror təşkilatının bayraqlarının tapıldığı bildirilir. Navid Akram bir neçə il əvvəl Avstraliya Təhlükəsizlik və Kəşfiyyat Xidməti (ASIO) tərəfindən Sidneydə yerləşən "İslam Dövləti" qruplaşmasının terror hücrəsi ilə sıx əlaqələrinə görə sorğu-sual edilibmiş. Daha əvvəl Avstraliya Təhlükəsizlik və Kəşfiyyat Xidmətinin direktoru Mayk Bercess qeyd edib ki, hücum edənlərdən biri agentliyə məlum idi, lakin onların fikrincə, "cəmiyyət üçün birbaşa təhlükə təşkil etmirdi". Hücum yəhudi icmasının Hanuka bayramı münasibətilə keçirdiyi tədbiri hədəf alıb. Polis qeyd edib ki, hücumçulardan Sacid Akramın istirahət məqsədli ov üçün verilmiş rəsmi silah lisenziyası olub.




## BMT Baş katibi terror hadisəsinə görə sarsılıb

Terror hadisəsinə beynəlxalq ictimaiyyət də reaksiya verib. BMT Baş katibi Antoniu Quterreş Sidneydə Hanuka bayramı zamanı baş verən silahlı hücumu pisləyib. Quterreş bu barədə "X" sosial şəbəkəsində yazıb: "Sidneydə Hanukanı qeyd etmək üçün toplaşan yəhudi ailələrinə qarşı törədilən dəhşətli hücuma görə sarsılmışam və onu qətiyyətlə pisləyirəm. Hanukanın ilk günündə - sülh və işıq möcüzəsinin qaranlığı məğlub etdiyi bayramda - düşüncələrim bütün dünyadakı yəhudi icması ilədir".

Böyük Britaniyanın Baş naziri Kir Starmer isə Avstraliyadan gələn xəbərləri son dərəcə kədərləndirici adlandırıb: "Birləşmiş Krallıq "Bondi" çimərliyindəki dəhşətli hücumdan təsirlənən hər kəsə başsağlığı verir və onların yanında olduğunu bildirir. Mənə vəziyyətin gedişi barədə mütəmadi məlumat verilir".

Sidneydəki bayram iştirakçılarına hücumu Çexiya rəhbərləri də pisləyiblər. Baş nazir Andrey Babiş hadisəni "iyrənc terror aktı" kimi xarakterizə edib. Həlak olanların ailələrinə başsağlığı verənlər arasında istefada olan baş nazir Petr Fiala və digər siyasətçilər də olub.

## Donald Tramp: Dəhşətli hadisədir

ABŞ Prezidenti Donald Tramp da Sidneydəki terror aktını və Suriyadakı Amerika hərbçilərinə hücumu şərh edib. Ağ Evdə çıxış edən ABŞ lideri Sidneydə çimərlikdəki terroru dəhşətli hadisə adlandırıb, eyni zamanda silahlının hücumu tamamlamasına mane olan cəsur insana böyük hörmətini ifadə edib. "Avstraliyadakı hücum zamanı çox cəsarətli bir adam təcavüzkarlardan biri ilə döyüşə girdi və bir çox insanın həyatını xilas etdi", - deyə Tramp vurğulayıb. O, həmçinin İŞİD-in Palmirada ABŞ-Suriya patruluna hücumuna da toxunub: "Üç böyük vətənpərvərimiz pis insanlar üzündən həlak oldu. Bunlar Suriya hakimiyyəti deyil, İŞİD idi. Suriya hökuməti bizim tərəfimizdə vuruşdu".

Terror hadisəsindən sonra Avstraliya hökuməti bir sıra addımlar atmağa hazırlaşır. Belə ki, Avstraliyanın Baş naziri Entoni Albaniz milli silah qanunvericiliyini sərtləşdirməyi təklif edib. Onun sözlərinə görə, hökumət silah qanunlarının daha da sərtləşdirilməsi daxil olmaqla, lazımi tədbirlər görməyə hazırdır. Baş nazir lisenziya sahibinin ala biləcəyi silahların sayına məhdudiyyət qoyulmasını da təklif edib.

Yeni Cənubi Uels ştatının Baş naziri Kris Minns də öz növbəsində bildirib ki, ştatda silah qanunları dəyişdiriləcək. O, silah lisenziyalarının müddətsiz verilməsinə qarşı olduğunu vurğulayıb. Avstraliyanın silah qanunları sonuncu dəfə 1996-cı ildə Port-Arturda 35 nəfərin ölümünə səbəb olan kütləvi atışmadan sonra nəzərdən keçirilib. Qanunvericiliyin sərtləşdirilməsinin terrorla mübarizəyə müsbət təsir edəcəyi bildirilir.

**N.BAYRAMLI**

# Çilidə prezident seçkilərinin ikinci turuna mühafizəkar liderlik edir



Müxalif mühafizəkar siyasətçi Xose Antonio Kast Çilidə prezident seçkilərinin ikinci turunda öndədir.

"Report" xəbər verir ki, bunu ölkənin Seçki Xidmətinin məntəqələrin 83,43 faizinin səslərinin hesablanmasından sonra dərc etdiyi nəticələr göstərir.

Nəticələrə əsasən seçicilərin 58,61 faizi Kasta səs verib. Onun rəqibi, hakim "Çili üçün birlik" sol-mərkəz koalisiyasını təmsil edən Janett Xaruya seçicilərin 41,39 faiz səs verib.

Sonuncu öz növbəsində rəqibini ikinci turda qələbə münasibətilə təbrik edibr.

"Mən indicə yeni seçilmiş prezident Xose Antonio Kastla danışıb ona Çilinin rifahı naminə uğurlar arzulayıram", - o, "X"də yazıb.

Kast hökumətin iqtisadiyyata müdaxiləsinin azaldılmasını, cinayətkarlıq və qanunsuz miqrasiya ilə mübarizədə daha sərt tədbirlərin görülməsinin tərəfdarıdır. O, korporativ vergiləri azaltmağı, dövlət xərclərini azaltmağı və Boliviya ilə sərhəd boyunca hasarlar qurmağı vəd edir.

# Ermənistan Aİ-dən kömək istəyib

Avropa İttifaqına (Aİ) üzv dövlətlərin xarici işlər nazirlərinin bu gün keçiriləcək iclasında Ermənistan da müzakirə ediləcək. Xarici KİV-lər xəbər verir ki, bu barədə jurnalistlərə açıqlamasında Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas bildirib.

"Növbəti il Ermənistanda seçkilər keçiriləcək. Bu gün biz Ermənistana bu məsələdə necə kömək edə biləcəyimizi müzakirə edəcəyik. Ermənistan xaricdən müdaxilənin qarşısını almaq üçün bizdən kömək istəyib", - Aİ rəsmisi deyib.



Xatırladaq ki, 2026-cı ildə Ermənistanda parlament seçkiləri keçiriləcək. K.Kallas daha əvvəl həmin seçkilər ərəfəsində Rusiyanın dezinformasiya kampaniyasını gücləndirməyə başladığını iddia etmişdi.

# Berlin “raundu”: sözdə irəliləyiş, reallıqda isə...

## ABŞ-Ukrayna görüşü gələcək üçün nə vəd edir?

Rusiya-Ukrayna müharibəsinin dayandırılması istiqamətində gedən danışıqlar prosesinin növbəti raundu keçirilib. Qeyd edək ki, ABŞ-ın vasitəçilik mandatını həyata keçirən qrup dekabrın əvvəlində Moskvada Rusiya rəsmiləri ilə görüşmüşdü. Təxminən beş saat davam edən görüşdə ABŞ-ın Ukrayna üçün sülh planı müzakirə edilmişdi.

Bu görüşün ardından isə növbəti raund Ukrayna tərəfi ilə keçirilməli idi - gözlənilən görüş dekabrın 14-də baş tutub. “Reuters” agentliyinin məlumatına görə, 14 dekabrda Berlində keçirilən Ukrayna və Amerika nümayəndə heyətləri arasında danışıqlar da beş saatdan çox davam edib. Görüşdə Ukrayna Prezidenti Volodimir Zelenski, ABŞ Prezidentinin xüsusi elçisi Stiv Vitkoff və Trampın nümayəndəsi Cared Kuşner iştirak edib. Tərəflər 20 maddəlik sülh planının məzmununu müzakirə ediblər.

Danışıqlardan sonra Stiv Vitkoff əhəmiyyətli irəliləyiş olduğunu bildirib. O, “X” sosial media platformasında yazıb ki, “Nümayəndələr 20 maddəlik sülh planı, iqtisadi məsələlər və digər mövzular üzrə ətraflı müzakirələr aparıblar. Əhəmiyyətli irəliləyiş əldə edilib”.

Vitkoff diplomatik dillə prosesi “irəliləyiş” adlandırsa da, yayılan informasiyalar vəziyyətin daha fərqli olduğunu ortaya qoyur. Xarici xəbər agentlikləri görüşün gərgin keçdiyini yazırlar. Vaşinqton sülh planının layihəsi üzrə güzəştə getmək istəmir - Ukrayna isə ortada olan sülh planı ilə tam razı deyil.

### Nümayəndə heyətinin sayı azaldıldı...

Ukrayna prezidentinin görüşün əvvəlində “Telegram” kanalında paylaşdığı şəkildən aydın olub ki, danışıqlarda NATO-nun Avropadakı Müttəfiq Qüvvələrinin komandanı, amerikalı general Aleksus Qrinkeviç də iştirak edib. Almaniyanın kansleri Fridrix Merts isə yalnız qısa açılış prosesində iştirak edib - sonra danışıqlar salonunu tərk edib. Ukrayna nümayəndə heyətinə isə Zelenski ilə yanaşı, Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının (NSDC) katibi Rüstəm Umerov və Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Andrey Qnatov təmsil edib. ABŞ nümayəndələri ilə görüşməzdən əvvəl Ukrayna lideri danışıqlar qrupunu genişləndirmək qərarını açıqlayıb. “İqtisadi sektoru İqtisadiyyat Naziri (Aleksey Sobolev) və Ukraynanın Baş Naziri (Yuliya Svırıdenko) təmsil edir - onlar danışıqlar qrupuna qoşulublar. Biz Ukraynayıq”, - deyə Zelenski “Telegram” kanalında yazıb. Lakin Kiyevin danışıqlar qrupu Berlindəki görüşdə tam heyətlə iştirak etməyib.



### Kiyev üçün NATO yolu bağlandı...

Amerika və Ukrayna nümayəndə heyətləri beş saatdan çox müzakirə aparıblar. Danışıqların bu mərhələsi çətinlik və razılaşmanın olmaması ilə xarakterizə olunur - “The Wall Street Journal” (WSJ) mənbəyə istinadən xəbər verir ki, ABŞ sülh müqaviləsi layihəsi ilə bağlı Kiyevə güzəşt etməkdən imtina edib. “Reuters” agentliyinin verdiyi məlumata görə, görüş zamanı Zelenski təhlükəsizlik zəmanətləri müqabilində Ukraynanın NATO üzvlüyündən imtina etmək təklifini irəli sürüb. ABŞ-Ukrayna danışıqlarından sonra Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas da çıxış edərək Ukraynanın NATO üzvlüyünün artıq müzakirə mövzusu olmadığını təsdiqləyib. Bunun müqabilində o, Kiyev üçün real təhlükəsizlik zəmanətləri tələb edib.

### Merts otaqdan çıxarıldı...

Danışıqlarla bağlı əsas reaksiya isə Avropa İttifaqından gözlənilir. Vurğulayaq ki, danışıqlar prosesinin Berlin raundunun yekununda Fransa Prezidenti Emmanuel Makronun və Böyük Britaniyanın Baş naziri Kir Starmerin Berlinə gəlməsinin gözlənildiyi qeyd edilirdi. Xarici nəşrlər bu səfərlərin Kiyev üzərində təzyiqi azaltmaq naminə ediləcəyini yazıb. Bildirilir ki, ABŞ-Ukrayna danışıqlarında vasitəçi kimi çıxış etməyə ümid edən Almaniya kansleri Merts danışıqlar otağından nəzakətlə, lakin qətiyyətlə çıxarılıb.

### Milada qədər...

Qeyd edək ki, NATO üzvlüyü ilə bağlı məsələ Vaşinqton və Kiyev arasında 30 noyabrda müzakirə edilmişdi. Ukrayna lideri isə münaqişənin həllində ən çətin üç məsələni müəyyən etmişdi: ərazi məsələsi, Rusiya aktivlərindən istifadə və təhlükəsizlik zəmanətləri. Volodimir Zelenski, həmçinin Ukraynada prezident seçkilərinin keçirilməsi qərarını açıqlamışdı. ABŞ Dövlət katibi Marko Rubio isə sülh danışıqlarının son mərhələlərindəki çətinliklərə baxmayaraq, ölkələrin tezliklə razılığa gələcəklərini bildirmişdi. “The Financial Times” qəzetinin xəbər verdiyi kimi, Tramp administrasiyası Miladdan əvvəl Vaşinqtonun təklif etdiyi sülh planına Ukraynanın cavabını gözləyir.



### “Amerika sülh, Avropa isə müharibə istəyir”...

“Bild” nəşrinin yazdığına görə, ABŞ münaqişənin həlli ilə bağlı danışıqlarda güzəştlərə getməsi üçün Ukraynaya təsir göstərir. Qəzet ABŞ-ın bu strategiyasının korrupsiya qalmaqalından sonra Zelenskinin daxili siyasi zəifliyindən irəli gəldiyini bildirir. ABŞ məsələnin həllində Ukraynadan çox maneə kimi məhz Aİ-ni görür. Macarıstanın Baş naziri Viktor Orban “Mandiner” jurnalına verdiyi müsahibədə mövcud vəziyyəti belə qiymətləndirib: “Aİ və Zelenski şərtlər uydururlar: Niyə Ukrayna üçün “son plan”ın layihələrinin sayı gündən-günə artır. Lakin Avropa liderləri bunu dəstəkləyirlər. Nəticədə iki düşərgə yaranıb. “Amerika sülh, Avropa isə müharibə istəyir”.

### Avropa “iki od arasında”...

Avropa İttifaqı isə qarşıdakı bir neçə günü “ekzistensial” mərhələ kimi qiymətləndirir. “Politico” nəşrinin yazdığına görə, Brüssel eyni vaxtda iki kritik cəbhədə mübarizə aparır: Ukraynanı ABŞ və Rusiya tərəfindən hazırlanan alçaldıcı sülh sazişindən qorumaq və Kiyevi dəstəkləmək üçün nəzərdə tutulan çoxmilyardlıq kreditin maliyyələşdirilməsi üzrə razılaşmanı xilas etmək.

Aİ rəsmilərindən biri sözügedən nəşrə bildirib ki, bu həftə Avropa daxilində parçalanmanın daha da dərinləşməsi Ukrayna üçün “fəlakətli siqnal” olar. Onun sözlərinə görə, belə bir ssenari yalnız müharibədən əziyyət çəkən Ukrayna üçün deyil, birbaşa Avropanın özü üçün də ağır məğlubiyyət anlamına gəlir. “Ədalətlə demək olar ki, bu halda Avropa da uduzmuş olacaq”, - deyə rəsmi vurğulayıb.

“Politico” qeyd edir ki, qarşıdakı günlər Aİ-nin həm siyasi birliyinin, həm də qlobal güc kimi etibarlılığının sınağına çevrilib. Qərarların gecikməsi və ya fikir ayrılıqlarının dərinləşməsi Brüsselin Ukrayna məsələsində təsir imkanlarını ciddi şəkildə zəiflədə bilər.

***P.İSMAYILOV***

# Rusiya-Ukrayna savaşının görünməyən tərəfi: kəşfiyyat müharibəsi

Rusiya-Ukrayna müharibəsi XXI əsrin ən genişmiqyaslı və çoxqatlı hərbi münaqişələrindən biridir. Bu müharibə təkcə tankların, artilleriyanın və raketlərin toqquşması ilə xarakterizə olunmur. Münaqişənin görünməyən, lakin bəzən daha həlledici olan bir tərəfi də mövcuddur - kəşfiyyat müharibəsi. Açıq döyüş meydanında nisbi sakitlik yarandığı anlarda belə kölgədə son dərəcə sərt və amansız əməliyyatlar aparılır.

Son dövrlərdə Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) açıqladığı bir iddia bu gizli müharibənin miqyasını bir daha gündəmə gətirdi. İddiaya görə, Ukrayna tərəfi bir rus hərbi pilotunu maliyyə və siyasi təminatlar müqabilində MiQ-31 qırıcı təyyarəsi ilə birlikdə Rumıniyadakı NATO bazasında eniş etməyə razı salmağa çalışıb. Hadisənin mərkəzində isə təyyarədən çox, onun daşıdığı “Kinjal” hipersəs raketi dayanırdı. Sözügedən iddiadan çıxış edərək, onun mümkün strateji nəticələri və müasir müharibədə texnoloji kəşfiyyatın roluna bir nəzər salaq.

2022-ci ilin 24 fevral tarixində Rusiya prezidenti Vladimir Putinin “xüsusi hərbi əməliyyat” bəyanatı ilə başlayan müharibə artıq dördüncü ilinə yaxınlaşır. Hərbi əməliyyatların intensivliyi ilkin mərhələlərlə müqayisədə azalsa da, siyasi ritorika hələ də sərtdir. Rusiya öz “strateji məqsədlərindən” geri çəkilməyəcəyini bildirir. Ukrayna ərazi bütövlüyündən bir qarış belə imtina etməyəcəyini vurğulayır. ABŞ və Avropa münaqişənin diplomatik yolla bitməsinin zəruriliyini bəyan edir. Türkiyə və Çin isə vasitəçilik təşəbbüsləri göstərir. Tərəflər açıq şəkildə sülhdən danışsalar da, real müharibə alətləri hələlik tam işə salınmış vəziyyətdədir.

**Kəşfiyyat müharibəsi nədir?**

Kəşfiyyat müharibəsi dövlətlərin hərbi, texnoloji, siyasi və psixoloji üstünlük əldə etmək üçün gizli üsullarla apardığı mübarizədir. Buraya aşağıdakılar daxildir:

* Strateji məlumatların ələ keçirilməsi;

* Düşmən texnologiyalarının öyrənilməsi;

* Yüksək rütbəli şəxslərin və ya mütəxəssislərin ələ alınması;

* Psixoloji təsir və dezinformasiya əməliyyatları.

Bu müharibə çox vaxt rəsmən təsdiqlənmir. Məlumatlar əsasən təhlükəsizlik qurumlarının qısa və qeyri-şəffaf açıqlamaları ilə ictimaiyyətə çatdırılır.

**MiQ-31: Köhnə platforma, yeni missiya**

MiQ-31 sovet dövründə hazırlanmış ağır qırıcı təyyarədir. Texniki baxımdan yeni nəsil qırıcılarla müqayisədə köhnə hesab olunsa da, onun əsas üstünlüyü daşıdığı silah sistemlərindədir. MiQ-31-in əsas xüsusiyyətləri:

* Çox yüksək sürət (Mach 2.8-ə qədər);

* Böyük yüksəkliklərdə fəaliyyət imkanı;

* Strateji raketlərin daşıyıcısı kimi uyğun platforma.

Bu təyyarəni dəyərli edən əsas amil isə onun “Kinjal” hipersəs raketinin daşıyıcısı olmasıdır. Mach - sürətin səs sürətinə nisbətini ifadə edən ölçü vahididir və aerodinamika, aviasiya və raket texnologiyasında geniş istifadə olunur. Mach 2.8 o deməkdir ki, cismin sürəti səs sürətindən 2.8 dəfə çoxdur.

**“Kinjal” hipersəs raketi: texnoloji və strateji təhlil**

“Kinjal” (X-47M2) - Rusiya tərəfindən hazırlanmış havaburaxılışlı hipersəs raketidir. Əsas texniki xüsusiyyətləri:

* Sürət: Səs sürətindən 8-10 dəfə yüksək (Mach 8-10);

* Trayektoriya: Dəyişkən və manevr edən uçuş yolu;

* Daşıma qabiliyyəti: Konvensional və ya nüvə döyüş başlığı;

* Hədəf profili: Yerüstü və dəniz hədəfləri.

Bu raketin ən təhlükəli xüsusiyyəti onun mövcud hava hücumundan müdafiə sistemləri üçün son dərəcə çətin hədəf olmasıdır. Trayektoriyanın dəyişməsi və yüksək sürət radarların hədəfi dəqiq izləməsini çətinləşdirir.

Texnoloji kəşfiyyat: niyə “Kinjal” Qərb üçün bu qədər əhəmiyyətlidir?

Texnoloji kəşfiyyat - rəqibin hərbi texnologiyasını əldə edərək onu analizdən keçirmək və zəif nöqtələrini aşkarlamaq məqsədi daşıyır.

Əgər “Kinjal” raketi fiziki olaraq Qərbin əlinə keçsəydi, materialları, elektron komponentləri, idarəetmə sistemi öyrənilsəydi, ona qarşı elektron mübarizə üsulları da inkişaf etdirilə bilərdi, mövcud hava hücumundan müdafiə sistemləri ona uyğunlaşdırıla bilər, beləliklə də Rusiya üçün ciddi strateji üstünlük itkisi baş verərdi.

Bu səbəbdən söhbət təkcə bir pilotun qaçmasından yox, qlobal hərbi balansı dəyişə biləcək ssenaridən gedir. Rusiya tərəfinin iddiasına görə, əməliyyatın arxasında Böyük Britaniyanın MI-6 kəşfiyyat xidməti dayanıb. Bu iddia təsadüfi deyil. Rusiya uzun müddətdir ki, Ukrayna müharibəsini “NATO ilə dolayı müharibə” kimi təqdim edir. Bu narrativin arxasında daxili auditoriyanı səfərbər saxlamaq, müharibəni regional yox, qlobal qarşıdurma kimi göstərmək və Qərbi birbaşa məsuliyyət daşıyan tərəf kimi təqdim etmək cəhdi durur. Qərb mənbələrinin iddianı nə təsdiqləməsi, nə də təkzib etməsi isə kəşfiyyat müharibələrinin klassik xüsusiyyətidir.

Bir dövlətin digər ölkənin hərbi pilotunu və strateji silahını ələ keçirməsi ordunun daxilində etimadsızlıq yaradır, komandanlıq səviyyəsində paranoidal mühit formalaşdırır, cəmiyyətə isə “dövlət sizi qoruya bilmir” mesajı ötürür.

Bu baxımdan, əməliyyatın ifşa olunması belə özlüyündə psixoloji təsir vasitəsidir.

MiQ-31 və “Kinjal” ətrafında formalaşan bu iddia bir daha sübuta yetirir ki, müasir müharibələr təkcə səngərlərdə aparılmır. Texnologiya, kəşfiyyat və psixoloji təsir müharibənin taleyini bəzən bir raketdən daha çox dəyişə bilir. Bu hadisə reallaşsaydı, Rusiya ciddi strateji zərbə alar, Qərb texnoloji üstünlük əldə edər və müharibənin gedişatı fərqli istiqamətə yönələ bilərdi. Lakin bir həqiqət dəyişməz qalır: mövcud müharibə kimin qalib gələcəyindən asılı olmayaraq insanlıq üçün ağır nəticələr verib, bu gün də verməkdədir.

**“Kuzminov insidenti”: psixoloji müharibənin klassik nümunəsi**

İrəli sürülən ehtimallar nəzəri deyil. 2023-cü ildə baş vermiş və artıq “Kuzminov insidenti” adıyla ədəbiyyata düşmüş hadisə bunun real nümunəsidir. Maksim Kuzminov Rusiya silahlı qüvvələrinin hərbi pilotu idi. Onun sözlərinə görə, müharibə başlamazdan əvvəl ordudan ayrılmaq niyyətində olub, lakin müharibə onun planını pozub. Bu dövrdə Qərb kəşfiyyat xidmətləri rus hərbçiləri ilə fəal şəkildə əlaqə yaratmağa başlamışdı. Bu fəaliyyətin əsas alətləri pul təklifləri, ABŞ və ya Avropa ölkələrinin vətəndaşlığı vədləri, ailənin təhlükəsizliyinə zəmanət idi. Kuzminov da bu mesajlardan birini aldı. Ona 3 milyon dollar nağd pul (sonradan mətbuata verdiyi açıqlamasında məbləğin beş yüz min dollar olduğunu qeyd etmişdi), Avropada təhlükəsiz həyat vəd olundu. 9 avqust 2023-cü ildə Kuzminov Mi-8 tipli hərbi vertolyotla Ukraynanın şərqindəki Rusiya sərhədinə yaxın hərbi bazaya eniş etdi. Vertolyotda olan digər iki rus hərbçisi onun planından xəbərsiz idi. Onlar enişdən dərhal sonra öldürüldülər, hadisənin detallarını anlamağa belə macal tapmadılar. Sonrakı mərhələdə Kuzminov Qərb mediasında geniş təqdim olundu, Rusiya hərbi cinayətlərdə ittiham edildi. Bu hadisə Moskvanın informasiya müharibəsində ciddi zərbə alması kimi qiymətləndirildi.

Bir müddət sonra Kuzminov mediadan yoxa çıxdı, ta İspaniyanın cənubundakı turistik bölgələrdən birində güllələnərək qətlə yetirildiyi xəbəri yayılana qədər. Meyitin üstündən avtomobillə bir neçə dəfə keçilmişdi. Bu, sadəcə qətl deyil, gözdağı xarakterli açıq mesaj idi. Üç ölkənin (Rusiya, Ukrayna, İspaniya) heç biri hadisə ilə bağlı açıq mövqe bildirmədi. Lakin beynəlxalq ictimaiyyətin böyük hissəsi bunu kəşfiyyat müharibəsinin qanlı epizodu kimi qəbul etdi.

**Əks-əməliyyat: psixoloji üstünlüyün yerdəyişməsi**

Kuzminov yeganə nümunə deyildi. Daha sonra Ukrayna kəşfiyyatı başqa bir rus pilotunu da eyni üsulla ələ almağa çalışdı - yenə 3 milyon dollar, bu dəfə İtaliya vətəndaşlığı vədi. Pilot “Pavlo” ləqəbli şəxsə razılıq verdiyini bildirdi. Lakin bu dəfə hadisələr fərqli yöndə cərəyan etdi. Pilot ilk gündən hər şeyi öz rəhbərliyinə bildirdi, kəşfiyyatla razılaşdırılmış plan üzrə hərəkət etdi, Ukraynadan aldığı koordinatlar üzrə raket zərbələri endirdi. Nəticədə Ukrayna və onu dəstəkləyən Qərb tərəfi ciddi itkilər verdi. Psixoloji üstünlük Rusiyanın tərəfinə keçdi, təbliğat maşını bu hadisədən maksimum istifadə etdi.

Bütün bunlar göstərir ki, Rusiya-Ukrayna müharibəsi səngərlərlə, xəritə üzərində çəkilən cəbhə xətləriylə məhdudlaşmır. Onun görünməyən qatında ikili agentlər hərəkətə keçir, tərəf dəyişən pilotlar talelərini qlobal güclərin oyunlarına bağlayır, minlərlə kilometr uzaqda səssiz qətllər həyata keçirilir və dövlətlərin taleyini müəyyən edən mürəkkəb kəşfiyyat kombinasiyaları qurulur.

Bu müharibədə “qalib” anlayışı nisbidir, çünki bu gün qazanılan üstünlük sabah bir kəşfiyyat səhvi üzündən əldən çıxa bilər. Məğlubiyyət isə həmişə açıq səngərlərdə görünmür, bəzən bir sənəddə, bir siqnaldakı boşluqda, bir insanın tərəf dəyişməsində gizlənir.

Açıq döyüşdən fərqli olaraq kəşfiyyat müharibəsində buraxılan bircə səhvin nəticəsi bəzən bir dövlətin onilliklər ərzində formalaşdırdığı hərbi, texnoloji və strateji üstünlüyün birdəfəlik itirilməsi ola bilər. Məhz buna görə kölgədə gedən, lakin nəticələri son dərəcə real və dağıdıcı olan müharibə bütün dövlətlər üçün açıq xəbərdarlıq kimi daim diqqət mərkəzində saxlanmalıdır.



***Kəramət QƏNBƏROV,***
***Beynəlxalq hüquq üzrə ekspert***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN




# Horovluya növbəti köç

## Hər qayıdış torpağa bağlılığın nümunəsidir...




Bu gün tariximizin ən qürurverici səhifələrindən biri yeni məzmunla yazılır. Otuz ilə yaxın işğal altında qalan torpaqlarımızın azad edilməsindən sonra başlayan Böyük Qayıdış prosesi mərhələli şəkildə davam edir. Bu qayıdışın növbəti ünvanlarından biri də Cəbrayıl rayonunun Horovlu kəndidir.

Horovlu uzun illər yurd həsrəti ilə yaşayan insanların xatirələrində bir nisgil, bir ümid yeri kimi qalmışdı. Bu kəndin sakinləri ata-baba ocaqlarını tərk etməyə məcbur qaldıqları gündən etibarən bir gün mütləq geri dönəcəklərinə inanırdılar. İndi isə həmin inam gerçəyə çevrilir.

Dünən Horovlu kəndinə növbəti köç karvanı yola salınıb. Bu mərhələdə 22 ailə - 85 nəfər köçürülüb. Kəndə çatan ailələrə evlərinin açarları təqdim olunub. Horovluya köçən ailələr qarşılandıqdan sonra onlar ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumatlandırılıblar. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan

### 85 nəfər yola salınıb

rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər. Ailələr sevinclə açarları qəbul edərək öz evlərində məskunlaşıblar.



### Dağıdılmış kəhrizlər bərpa edilib...

Qeyd edək ki, kəndin ümumi sahəsi 248 hektardır. Birinci mərhələdə 94 hektar ərazidə 334 fərdi ev inşa edilib. Evlər 2, 3, 4, 5 otaqlıdır və müasir kommunikasiya şəbəkəsi -su, işıq, qaz, Günəş panelləri, yüksəksürətli internetlə təmin olunub. Kənddaxili yollara asfalt döşənib. 624 şagird yerlik məktəb binasının, 220 yerlik körpələr evi-uşaq bağçasının, ikimərtəbəli inzibati binanın, bazar kompleksinin, çoxfunksiyalı iaşə obyektlərinin, tibb məntəqəsinin və idman-sağlamlıq mərkəzinin tikintisi həyata keçirilib. Kənddə tarixən istifadə olunmuş, işğal dövründə dağıdılmış "Əsgər", "Şığı", "Orta", "Gülqasım" və "Xəlifə" kəhrizləri bərpa edilib.

Horovlu kəndində 4,4 hektar ərazidə park kompleksi də inşa olunub. Eyni zamanda, Bayraq meydanından bazar kompleksinə qədər gəzinti yolları salınıb. 3,1 hektar yaşıllıq ərazisində zeytun, çinar və Eldar şamı ağacları əkilib.

Horovluda aparılan yenidənqurma və bərpa işləri dövlətin gücünü, siyasi iradəsini və vətəndaşlara olan qayğısını aydın şəkildə nümayiş etdirir. Məqsəd təkcə insanları köçürmək deyil, onların təhlükəsiz, rahat və layiqli həyat şəraitini təmin etməkdir.

### İnanırıq ki, hər şey çox gözəl olacaq...

Horovluya köç edən keçmiş məcburi köçkün Teymur Allahverdiyev gələcək barədə düşüncələrini bölüşərək qeyd edib: "Bu gün ən sevimli günümüzdür, doğma elimizə, obamıza qayıdırıq. Şəhidlərimizə Allahdan rəhmət,



qazilərimizə isə şəfa, cansağlığı və uzun ömür arzulayırıq. Onların sayəsində bu günləri yaşayırıq və hər birinə dərin minnətdarlığımızı bildiririk.

Qarşıdakı dövrdə doğma torpağımızda əkinçiliklə, biçinçiliklə, heyvandarlıqla məşğul olmağı, öz zəhmətimizlə yaşamağı düşünürük. İnanırıq ki, hər şey çox gözəl olacaq. Çünki bura bizim öz yurdumuz, öz doğma torpağımızdır. İnsan hər zaman öz yurdunda, doğma torpağında daha rahat dolanar, daha gözəl ömür sürər".

Horovluya qayıdan sakinlərin sevinc dolu baxışlarında həm keçmişin ağrısı, həm də gələcəyə olan böyük ümid görünür. Bu insanlar dağıdılmış evlərin yerində yenidən qurulan ocaqlara köçür, amma, əslində, onlar itirilmiş illərin xatirəsini, sınmayan ruhu və qüruru özləri ilə gətirirlər. Hər qayıdış hekayəsi Vətənə sədaqətin, torpağa bağlılığın canlı nümunəsidir.

*Yeganə BAYRAMOVA*

---

# Hər çağırışa hazır olmaq!

## FHN işçiləri çətin anlarda yanımızdadırlar

Həyat bəzən insanları gözlənilməz sınaqlarla üz-üzə qoyur. Təbii fəlakətlər, yanğınlar, qəzalar, dağıntılar... Bu təhlükəli anlarda insanların ümidlə baxdığı bir ünvan var: Fövqəladə Hallar Nazirliyinin (FHN) əməkdaşları. Onlar təhlükənin mərkəzinə doğru irəliləyən, başqalarının həyatını xilas etmək üçün öz canını riskə atan qəhrəmanlardır.

FHN işçiləri üçün iş günü anlayışı yoxdur. Gecə-gündüz, isti-soyuq bilmədən, hər çağırışa hazır olmaq onların peşə borcudur. Təbii ki, yanğın alovlarının içərisində, dağıntılar altında, sel sularının axarında insan həyatını xilas etmək üçün apardıqları mübarizə, fövqəladə xilas missiyası böyük fədakarlıq nümunəsidir. Hər birimizin üzərinə düşən borc FHN əməkdaşlarının əməyini qiymətləndirmək və təhlükəsizlik qaydalarına əməl etməklə onların işini bir qədər asanlaşdırmaqdır.

Yeri gəlmişkən, bu gün Fövqəladə Hallar Nazirliyinin (FHN) yaradılmasından 20 il ötür. Nazirlik Prezident İlham Əliyevin 2005-ci il 16 dekabr tarixli Sərəncamı ilə yaradılıb. Dövlət başçısının 2006-cı il 8 dekabr tarixli Sərəncamına əsasən isə hər il dekabrın 16-sı ölkəmizdə FHN işçilərinin peşə bayramı günü kimi qeyd edilir.

Fəaliyyət göstərdiyi 20 il ərzində nazirlik baş verə biləcək fövqəladə hadisələrin vaxtında aşkarlanması, qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün son dərəcədə mühüm peşəkarlıq nümayiş etdirib. Ötən 20 il ərzində bu sahə ilə bağlı normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində əsaslı fəaliyyət ortaya qoyulub - onlarla hüquqi sənəd hazırlanıb. FHN-nin təkcə Bakıda deyil, regionlardakı qurumlarının da maddi-texniki bazası əsaslı surətdə yenilənib.

### Müasir mexanizmlərlə təchiz olunan texnika parkı

Nazirliyin bütün qurumlarının texnika parkı dünyada mövcud olan ən müasir müxtəlif təyinatlı maşın və mexanizmlərlə zənginləşdirilib. Nazirliyin informasiya texnologiyaları infrastrukturunun yaradılması və inkişaf etdirilməsi, elektron xidmətlərin təşkili, eləcə də respublika ərazisində baş vermiş təbii-texnogen hadisələrin statistikasının aparılması istiqamətində müvafiq tədbirlər həyata keçirilib, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi və "112" qaynar telefon xətti yaradılıb.

FHN əməkdaşlarının peşə hazırlığının artırılması məqsədilə bir sıra ölkələrin müvafiq ali təhsil ocaqları ilə bağlanan müqavilələr əsasında nazirliyin işçiləri həmin təhsil müəssisələrində biliklərə yiyələnirlər. Bununla yanaşı, Azərbaycan Prezidentinin imzaladığı müvafiq Sərəncamla 2008-ci ildə Fövqəladə Hallar Nazirliyinin zəruri maddi-texniki baza ilə təmin edilmiş Akademiyası yaradılıb. FHN-in xarici ölkələrin müvafiq dövlət qurumları və nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələri inkişaf etdirilib.

### Beynəlxalq əməkdaşlıq...

FHN yarandığı ilk gündən beynəlxalq əməkdaşlığı və tərəfdaşlığı fəaliyyətinin əsas prinsiplərindən biri kimi müəyyənləşdirib. Qısa müddət ərzində Rusiya, Türkiyə, Fransa, Belarus, Koreya Respublikası, Almaniya, Rumıniya və digər ölkələrlə əlaqələr möhkəmlənib, beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq əlaqələri qurulub. Bununla yanaşı, ötən müddətdə FHN Müdafiə, Daxili İşlər, Səhiyyə nazirlikləri, Dövlət Sərhəd Xidməti, habelə digər dövlət qurumları ilə birgə təlimlər həyata keçirib.

Nazirliyin əməkdaşları çətin sınaqlarda dəfələrlə peşəkarlıqlarını və cəsarətlərini ortaya qoyublar. FHN-nin təşkilatçılığı və ev sahibliyi ilə ötən illər ərzində bir sıra regional və beynəlxalq əhəmiyyətli tədbirlər keçirilib. FHN ötən dövrlərdə müxtəlif ölkələrdə baş vermiş fəlakətlərin nəticələrinin aradan qaldırılması, xilasetmə və humanitar yardımların çatdırılması əməliyyatlarını uğurla yerinə yetirib.




### Qardaşlıq nümunəsi...

FHN ölkə Prezidentinin tapşırığı ilə bir neçə ölkəyə humanitar yardımlar çatdırıb. Bundan başqa, FHN-in xilasetmə dəstələri İsraildə, Gürcüstanda və Türkiyədə meşə yanğınlarının söndürülməsində, zəlzələ ilə bağlı fəlakətin aradan qaldırılmasında fəal iştirak ediblər. Nazirliyin şəxsi heyətinin peşəkarlığının və digər ölkələrdə baş verən fövqəladə hadisələrin qarşısının alınmasında göstərdiyi yüksək çeviklik və fədakarlığın ən bariz nümunəsi ötən ilin yayında qardaş Türkiyədə baş vermiş meşə yanğınlarının söndürülməsi, 2023-cü ilin fevralında dağıdıcı zəlzələnin fəsadlarının aradan qaldırılması zamanı ortaya qoyduğu peşəkarlıq oldu. Qardaş ölkədə təbii fəlakətlərin aradan qaldırılması məqsədilə Türkiyəyə gedən FHN xilasediciləri və yanğınsöndürücüləri əsl qardaşlıq örnəyi nümayiş etdiriblər.

### Vətən müharibəsində FHN işçilərinin fədakarlığı...

Vətən müharibəsi dövründə FHN-in bütün strukturları Qələbənin qazanılmasına töhfələrini veriblər. Nazirliyin qüvvələri düşmən tərəfindən ağır artilleriya qurğularından və raketlərdən atəşə məruz qalan yaşayış məntəqələrinin yanğından mühafizəsində və xilasetmə işlərində rəşadət göstəriblər.

Ölkə başçısının diqqət və qayğısı sayəsində işğaldan azad olunmuş ərazilərdə nazirliyin qurumlarının texnika parkının müasir standartlara uyğun olaraq qurulması istiqamətində ciddi tədbirlər görülüb. FHN-in fədakarlıq və peşəkarlıq örnəkləri qurumun şəxsi heyətinin ölkə rəhbərliyinin qarşıya qoyduğu vəzifələri daha yüksək keyfiyyətlə, operativ və sədaqətlə yerinə yetirməyə hər an hazır və qadir olduğunu deməyə əsas verir.

Əminliklə deyə bilərik ki, təhlükə anında tək deyilik. FHN işçiləri hər zaman yanımızdadırlar, həyatımızı qorumaq, sabaha ümidlə baxmağımız üçün...

*Yeganə BAYRAMOVA*

---

# Azercell növbəti dəfə keyfiyyətin idarə olunması üzrə beynəlxalq sertifikatını yenilədi

***Mobil operator ISO 10004:2018 standartına uyğunluğunu yenidən təsdiqlədi***

"Azercell Telekom" MMC müştəri xidmətləri sahəsində beynəlxalq standartlar üzrə aparılan sertifikasiya auditindən uğurla keçərək ISO 10004:2018 sertifikatını yeniləyib. Bu sertifikat müştəri məmnuniyyətinin ölçülməsi və keyfiyyətin idarə olunması üzrə beynəlxalq tələblərə uyğun fəaliyyət göstərən şirkətlərə təqdim edilir.

Dəyərləndirmə zamanı Azercell-in müştəri məmnuniyyətini daim diqqət mərkəzində saxladığı, müştəriyönümlü yanaşması və xidmət keyfiyyətinə sadiqliyi bir daha təsdiqlənib. Sertifikatlaşdırma prosesi "TÜV Austria Azərbaycan" MMC tərəfindən həyata keçirilib.

ISO (Beynəlxalq Standartlaşdırma Təşkilatı) dünya üzrə milli standart qurumlarını birləşdirən federasiyadır. Təşkilat idarəçilik, texnologiya, biznes sahələrində xidmət və təcrübələrin keyfiyyətini dəyərləndirən minlərlə standartı təsdiq edir.

Qeyd edək ki, Azercell ISO 10004:2018 standartı üzrə ilk sertifikatını 2021-ci ildə qazanıb. Şirkət ardıcıl olaraq dördüncü dəfə ISO 10004 sertifikatına layiq görülür.

Azercell

## Elan

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən Əliyev Bayram Əyyub oğluna verilmiş 1396 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.


Təsisçi: Yeni Azərbaycan Partiyası
Baş redaktor: Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar: 493-16-94, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4826
Sifariş: 2553
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi: Yeganə Bayramova